## İyunun 9-da bayram namazı qılınacaq

Qafqaz Müsəlmanları İdarəsi fətva verib



**Azərbaycanda Qurban bayram namazlarının qılınacağı vaxt açıqlanıb.**

Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının Qurban bayramı ilə bağlı fətvasında bildirilir ki, AMEA Şamaxı Astrofizika Rəsədxanasının hesablamalarına əsasən Azərbaycan üfüqündə Hilalın görünməsinə uyğun olaraq Qurban bayramı Zül-hiccə ayının 10-na - Miladi təqvimlə 9 iyul tarixinə təsadüf edəcəkdir. Şəriətə uyğun olaraq Qurban kəsimi 9 iyul tarixindən başlayaraq 3 gün davam edə bilər. İyul ayının 9-da məscidlərimizdə birgə Bayram namazları qılınacaqdır, inşəallah.

**Məlahət**

## Ukraynadan taxıl ixracı üzrə danışıqlar davam edir



**Ukraynadan taxıl ixracının təşkili ilə bağlı danışıqlar davam edir, indiki şəraitdə gübrə isə tehsalı son dərəcə vacibdir.**

Trend xəbər verir ki, bunu BMT-nin baş katibinin rəsmi nümayəndəsi Stefan Cüjarrik deyib. "Danışıqlar davam edir. Və təbii ki, gübrə məlum səbəblərə görə həyati əhəmiyyət kəsb edir", - deyə S.Cüjarrik bildirib. Onun sözlərinə görə, taxıl təchizatı problemləri təkcə ərzaq təhlükəsizliyinə deyil, həm də heyvandarlıq sektoruna təsir göstərir.


❐ № 118 (5640), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 7 iyul 2022-ci il (cümə axşamı)





## "AZAL xarici şirkətlərə imkan vermir"

"Hava nəqliyyatı infrastrukturu özəl, biznes maraqları çərçivəsində idarəetməyə verilməlidir"

**Azərbaycan Hava Yolları(AZAL) vətəndaşlara təqdim etdiyi xidmətin olduqca bahalı olması aylardır, illərdir müzakirə olunur.**

Quru yollarının tamamilə bağlı olduğu bir dönəmdə AZAL-ın aviabilet qiymətlərini yüksək qiymətə təklif etməsi əhali arasında narazılıq yaradır. Əksər sosial şəbəkə istifadəçisinin fikirincə, bahalaşma səbəbi bu sahədə rəqabətin yaradılmaması və digər hava şirkətlərinə şansın tanınmamasıdır.


(səh.3)




## Türkiyənin qələbəsi

Ərdoğan: "FETÖ NATO-nun terror təşkikatları siyahısına daxil edilib"

**FETÖ NATO-nun terror təşkilatları siyahısına daxil edilib. APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib.**

O qeyd edib, ki buna NATO-nun Madrid Zirvəsi zamanı İsveç və Finlandiyanın təşkilata üzv olmasına dair danışıqlarda şərt qoyaraq nail olub.

Ərdoğan əlavə edib ki, siyahıya PKK, PYD-YPG terror təşkilatları da daxil edilib.

## Gürcüstan ev sahibliyi etməyə hazırdır

Azərbaycan və Ermənistan deputatlarının Tbilisidə görüşünün keçirilməsi təklif olunur




**"Gürcüstan sülh naminə dialoqu təşviq etmək məqsədilə Azərbaycan və Ermənistan parlamentləri üzvlərinin Tbilisidə görüşünü təşkil etməyə hazırdır".**

Bunu Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri Nikoloz Samxaradze Böyük Britaniyanın Birminqem şəhərində keçirilən ATƏT Parlament Assambleyasının (PA) sessiyasının son iclasında çıxışında deyib.

Cənubi Qafqazda sabitlik və əmin-amanlığın əhəmiyyətindən danışan komitə sədri bölgədə sülhün təmin olunmasında Gürcüstanın sabitləşdirici rol oynamağa hazırlığını ifadə edib.


(səh.3)


# Rusiya Tovuz sərhəddi yaxınlığında hərbi baza qurur

Cavabımız aydındır, Azərbaycan da həmin rayonda Türkiyənin hərbi məntəqəsini yaratmalıdır



**Ermənistanın Aygepar kəndində Rusiyanın hərbi bazasının yaradılacağı deyilir. Bir müddətdir sözügedən kənddə rusların da iştirakı ilə tikinti işləri aparılır. Aygepar kəndi Azərbaycanın Tovuz rayonundakı Əlibəyli kəndinin 1 kilometrliyində yerləşir.**

Sovet vaxtı burada Yak-40 təyyarələri üçün enmə-qalxma zolağı olub. Erməni mediası yazır ki, Ermənistanın Tavuş vilayəti Berd rayonunun Aygepar kəndində bir aydan çoxdur ki, qızğın tikinti işləri gedir. Hətta hökumət saytları da yazır ki, Ermənistan ərazisindəki Rusiya hərbi bazasının dislokasiya ünvanlarının dəyişməsinə dair protokola uyğun olaraq Rusiya tərəfinə yeni torpaq sahələri və daşınmaz əmlak verilir. Ermənistanın Müdafiə naziri Suren Papikyan deyib ki, bu barədə hökumət qərarı var.


(səh.3)


# Qəpiklə mənzil başına...

Avtobuslardan istifadə edənlərin sayı artıb




**Avtomobil nəqliyyatı ilə daşımaların həcmi artıb.**

Dövlət Statistika Komitəsinin məlumatında qeyd olunur ki, 2022-ci ilin yanvar-may aylarında Azərbaycanda nəqliyyatçılar 624,4 milyon sərnişinə xidmət göstərib. Sərnişinlərin 86,5 faizi avtomobil nəqliyyatı, 13,1 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınıb.


(səh.6)




## Mobil telefon aşkarlanıb

6 nəfər imtahandan xaric edilib

**Dövlət İmtahan Mərkəzi tərəfindən III ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı zamanı 6 nəfərdə mobil telefon aşkarlandığı üçün imtahandan xaric olunub.**

DİM-dən Trend-ə verilən məlumata görə, üzərində mobil telefon tutulduğu üçün imtahandan xaric olunanların nəticələri ləğv olunur və müsabiqəyə buraxılmırlar.

*Qeyd edək ki, bu gün Dövlət İmtahan Mərkəzi tərəfindən III ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib.*

## Keçmiş polis Şəhidlər xiyabanında özünü asıb




**Sumqayıt şəhərində sabiq polis əməkdaşı intihar edib.**

Hadisə bu gün axşam saatlarında Sumqayıt şəhərindəki Şəhidlər Xiyabanı ərazisində baş verib.

Sumqayıt şəhər Baş Polis İdarəsinin sabiq 2-ci polis bölməsinin əməkdaşı, polis serjantı, 1996-cı il təvəllüdlü Fuad Ağayev xiyaban ərazisindəki ağacdan özünü asıb.

Ərazidəki sakinlər onun asılmış meyitini aşkar edərək hüquq-mühafizə orqanlarına məlumat verib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən bildiriblər ki, intihar edən şəxs hazırda polis əməkdaşı deyil. Həmin şəxs bir müddət əvvəl səhhətində yaranmış problemlə əlaqədar öz xahişi ilə polis orqanlarından xaric edilib.

## Ölən yoxdur

Daha 69 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 69 yeni yoluxma faktı qeydə alınıb, 36 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, ölən yoxdur.

İndiyədək ölkədə ümumilikdə 793 506 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 783 501 nəfər müalicə olunaraq sağalıb, hazırda 287 aktiv xəstə var. Bu günə qədər 9 718 nəfər vəfat edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 2 755, bu günə qədər isə ümumilikdə 6 977 685 test icra olunub.



## İrəvanda Azərbaycana məxsus tarixi-dini abidələr çox olub

Faiq Ələkbərli: "Təkcə Təpəbaşı məhəllsi, Göy məscid deyil, bütün abidələrimizə sahib çıxmalıyıq. Tarixi bölgəmizi vəhşi, dağıdıcı ermənilərin öhdəsinə buraxa bilmərik"


(səh.3)




## "Parklanmadan yığılan pul büdcəyə yox, ciblərə gedir"

Məhərrəm Zülfüqarlı: "İcra hakimiyyətlərinin xüsusi nəzarəti ilə problem aradan qalxa bilər"


(səh.3)



# Prezident Ramana qəsəbəsində görülən abadlıq işləri ilə tanış olub

Yenidənqurma zamanı ətraf mühitin qorunması, qəsəbənin ekoloji vəziyyəti nəzərə alınıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Ramana qəsəbəsində görülən abadlıq işləri ilə tanış olub.**

"Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru Bünyad Qasımov qəsəbədə görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

**Bünyad Qasımov:** Cənab Prezident, bu, yeni işıqlandırma sistemidir.

**Prezident İlham Əliyev:** Qənaətlə işləyir?

**Bünyad Qasımov:** Cənab Prezident, bunlar yerli, Azərbaycanda istehsal olunan divarüstü işıqlardır. Bütün kənd 100 faiz tam işıqlıdır.

**Prezident İlham Əliyev:** İşıqlandırılıb. İş yerləri də yaradılıb.

**Bünyad Qasımov:** 300 iş yeri artıq mövcuddur. Planlaşdırmışıq, ilin sonuna qədər 450-yə qədər iş yeri açdıraq.

Bildirildi ki, Ramana qəsəbəsində yenidənqurma işləri yekunlaşıb, qəsəbədaxili yollar asfaltlanıb, divar və dam örtükləri yenilənib, küçələrin işıqlandırılması həyata keçirilib. Qəsəbənin Həsənbəy Zərdabi, Xanlar, Mirzəağa Əliyev, Əbdürrəhman bəy Haqverdiyev və qəbiristanlıq ətrafı küçələri tamamilə yenilənib. Həmçinin ərazi tullantılardan təmizlənib.

Diqqətə çatdırıldı ki, Ramana qəsəbəsi Abşeron ərazisində turizm marşrutlarına daxil edilə biləcək abidələrlə zəngindir. Onlardan biri qəsəbənin girişində əzəməti ilə diqqəti cəlb edən, XII-XIV əsrlərə aid olduğu bildirilən Ramana qalası yüksək nöqtədə yerləşir. Ehtimal edilir ki, divarlarının hündürlüyü 15 metr olan qala müdafiə məqsədilə tikilib və Şirvanşahlar dövləti dövründə qəsr kimi istifadə olunub. Məşhur "Koroğlu", "Nəsimi" və "Babək" filmlərinin müəyyən səhnələri Ramana qalasında çəkilib.

Dövlətimizin başçısı qalada aparılan bərpa işləri ilə tanış oldu.

Ramananın qədim abidələrindən biri də Novruzqulu hamamıdır. Prezident İlham Əliyevə bu qədim hamam barədə də məlumat verildi. Bildirildi ki, keçmişdə hamamda dörd quyu fəaliyyət göstərsə də, indi onlardan üçü mövcuddur. Novruzqulu Babakişi oğlunun adını daşıyan hamam Abşeron yarımadasında yeganə tikilidir ki, onun sənədləri toplanıb və təsdiqlənib. Hamamın binasında keyfiyyətli bərpa işləri görülüb.



Qeyd edilib ki, Ramanada yenidənqurma işləri zamanı ətraf mühitin qorunması, qəsəbənin ekoloji vəziyyəti prioritet məsələlərdən biri olub.

Dövlətimizin başçısına Ramanada əhalinin məşğulluğunun artırılması sahəsində görülən işlər barədə də məlumat verildi. Qeyd edildi ki, qəsəbədə xalçaçılıq müəssisəsi və satış mağazası açılıb. Yaradılan yeni iaşə və xidmət obyektlərində məhsulların istehsalı və satışı həyata keçirilir. Bu obyektlər müştərilərə yüksək səviyyədə xidmət göstərmək, onların rahatlığını təmin etmək üçün zəruri vasitələr və avadanlıqlarla təchiz olunub.

Məlumat verildi ki, Pirşağıda hazırlanan quru meyvələrin satışı da Ramanada həyata keçiriləcək. Səyyar satış obyektləri və köşklərin quraşdırılması ilə məşğulluğun artırılmasına nail olmaq, həmçinin yerli əhali və turistlərin ehtiyaclarını qarşılamaq mümkündür.

Ramanada reallaşdırılan layihələrdən biri də vertikal bağçılıq layihəsidir. Layihənin məqsədi özünəməşğulluğun artırılmasına, aztəminatlı ailələrin daha çox gəlir əldə etməsinə və ailə təsərrüfatlarının inkişafına dəstək olmaq, həmçinin yaşıllıqların genişləndirilməsinə, bitkiçiliyin və kənd təsərrüfatı məhsulları emalının inkişafına töhfə verməkdir.

Dövlətimizin başçısı Ramanadakı evlərdən birinin həyətində qəsəbə sakini ilə söhbət etdi.

**Prezident İlham Əliyev:** Salam, necəsən?

**Sakin:** Sağ olun, yaxşıyam.

**Prezident İlham Əliyev:** Sənin evindir?

**Sakin:** Bəli. Yeni abadlaşdırılmış Ramana kəndimizə xoş gəlmisiniz. Hər zaman Siz gələsiniz.

**Prezident İlham Əliyev:** Çox sağ ol.

**Sakin:** Gördüyünüz bu evdə şəhid əmim Allahverdi Allahverdiyev qalıb.

**Prezident İlham Əliyev:** Birinci Qarabağ müharibəsi şəhidi?

**Sakin:** Bəli, Birinci Qarabağ müharibəsinin veteranı Fərzəli Fərzəliyev babamdır, əmim də var Namiq Allahverdiyev, o da müharibə veteranıdır.

**Prezident İlham Əliyev:** Sən bu işlə də məşğul olursan?

**Sakin:** Bəli, cənab Prezident.

**Bünyad Qasımov:** Damcı üsulu ilə suvarmadır.

**Prezident İlham Əliyev:** Çiyələkdir?

**Bünyad Qasımov:** Bəli, çiyələkdir. Yenidir, 10-15 gün olar. Bir-iki aydan sonra buralar hamısı yaşıl olacaq, cənab Prezident.

**Prezident İlham Əliyev:** Çox yaxşı.

**Bünyad Qasımov:** Qışda göyərti, yayda da çiyələk əkilir.

**Prezident İlham Əliyev:** Görürəm bu ev də, həyəti də təmir olunub.

**Bünyad Qasımov:** Ümumiyyətlə, Sizin tapşırığınıza və göstərişinizə əsasən, evlərin damları, qapıları, divarları, darvazaları əsaslı təmir edilib. Şəhid və veteran ailələrinin evlərinə xüsusi diqqət yetirilib.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Sağ olun.

Ramana həm də ovdanları ilə məşhurdur. Qəsəbədə bərpaolunan tarixi abidələrdən biri də el arasında 40 pillə adlanan su ovdanıdır. Azərbaycan ərazisində, Abşeron yarımadasında və ona qonşu ərazilərdə ovdanlara daha çox təsadüf edilir. Bu yerlərdə içməli su mənbələri çox az olduğundan XVI-XVIII əsrlərdə içmək üçün yararlı olan lay sularından istifadə edilməsi məsələsi aktuallaşıb və ovdanlar yaradılıb. Bu qurğuların tikintisi XX əsrə qədər davam edib.

Prezident İlham Əliyevə su ovdanında görülən təmir-bərpa işləri barədə məlumat verildi.

Ramana sakinlərinin həm sağlam həyat tərzi, həm də asudə vaxtlarını səmərəli keçirmələri üçün qəsəbədə İdman Mərkəzi inşa olunub. Mərkəzdə qapalı idman zalı, minifutbol meydançası yaradılıb.

## Rusiya XİN:

Üçtərəfli işçi qrupun fəaliyyətində müəyyən irəliləyiş əldə olunub

**Cənubi Qafqazda nəqliyyat əlaqələrinin açılması üzrə üçtərəfli işçi qrupun fəaliyyətində müəyyən irəliləyiş əldə olunub.**

Trend-in məlumatına görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) İnformasiya və mətbuat departamentinin direktor müavini Aleksey Zaytsev deyib.

"Azərbaycan, Rusiya və Ermənistan baş nazir müavinlərinin rəhbərliyi altında Cənubi Qafqazda bütün iqtisadi və nəqliyyat əlaqələrinin açılması üzrə üçtərəfli işçi qrup çərçivəsində işlər davam edir. İyunun 3-də Moskvada keçirilmiş 10-cu iclasın yekununda müəyyən irəliləyiş əldə olunub. Nəqliyyat kommunikasiyalarının bərpası üzrə müxtəlif aspektlər üzrə tərəflərin mövqelərini yaxınlaşdırmaq mümkün olub. Məlum olduğu kimi, üçtərəfli işçi qrup çərçivəsində Azərbaycan, Ermənistan və qonşuların marağında olan dəmiryol və avtomobil əlaqəsinin işə salınması müzakirə olunur. Həmsədrlər işlərinin nəticələri barədə konkret razılaşmalar əldə olunandan sonra KİV-ləri məlumatlandıracaq", - deyə o bildirib.



## Paşinyan Putinə Türkiyədən danışıb

Baş nazir Rusiya Prezidentini son təmaslar barədə məlumatlandırıb

**Rusiya Prezidenti Vladimir Putin və Ermənistan baş naziri Nikol Paşinyan arasında telefon danışığı olub.**

APA-nın Moskva müxbirinin Kremlin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, erməni tərəfinin təşəbbüsü ilə baş tutan telefon danışığı zamanı Rusiya, Ermənistan və Azərbaycan liderləri arasında 9 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli üçtərəfli razılaşmaların icrasının praktiki aspektlərinin müzakirəsi davam etdirilib.

O cümlədən Ermənistan-Azərbaycan sərhədində təhlükəsizliyin təmin edilməsi, Cənubi Qafqazda iqtisadi, nəqliyyat və logistika əlaqələrinin bərpası məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Nikol Paşinyan Vladimir Putini Ermənistan və Türkiyə arasında münasibətlərin normallaşmasına yönəlmiş son təmaslar barədə məlumatlandırıb.

# III ixtisas qrupuna təkrar imtahan keçirilib

Kamran Əsədov: "Abituriyentlər Azərbaycan dili və Tarix fənnindən çətinlik çəkməyiblər"

**Dövlət İmtahan Mərkəzi tərəfindən III ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. İmtahan 12 şəhər və rayonda təşkil olunub.**



"Amma Ədəbiyyat fənnində müəyyən qədər çətinlik yaşayıblar"

İmtahanda 16620 abituriyentin iştirakı nəzərdə tuturdu. İmtahanda 21 nəfər fiziki məhdudiyyətli (I qrup gözdən əlil, eşitmə əngəlli və digər) abituriyent də iştirak edib. Bu abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında ayrıca zallar ayrılıb, gözdən əlillər üçün tapşırıqların oxunması, cavab vərəqinin doldurulması və s. işlər üçün fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli abituriyentlərin bina və zala daxil olması və rahat şəkildə hərəkəti üçün də xüsusi şərait yaradılıb.

6 nəfərdə mobil telefon aşkarlandığı üçün imtahandan xaric olunub. Üzərində mobil telefon tutulduğu üçün imtahandan xaric olunanların nəticələri ləğv olunur və müsabiqəyə buraxılmırlar.

**Bu gün keçirilən imtahanı "Şərq"ə şərh edən təhsil eksperti Kamran Əsədov bildirib ki, Tarix, Azərbaycan dili, Ədəbiyyat fənnindən suallar tam şəkildə orta ümumi təhsil məktəb dərsliklərinə və Dövlət İmtahan Mərkəzinin qəbul proqramına uyğun olaraq hazırlanıb:** "Bütün siniflər və kitablar üzrə suallar bərabər paylanılıb. Ümumilikdə bu mərhələ abituriyentlərə nəticələrini yaxşılaşdırmaq imkanı verir. Lakin təəssüflər olsun ki, bəzi abituriyentlər bu imkandan düzgün istifadə etməyiblər. Onlar köməkçi vasitələri imtahan binasına keçirməyə cəhd ediblər. Yekunda onlar tamamilə imtahan nəticəsindən məhrum olublar. Bu ciddi problemi hər il yaşayırıq".

*Ekspert hesab edir ki, bu mərhələnin nəticələrindən maksimum bal gözləmək olar:* "Bu gün III ixtisas qrupu üçün keçirilən qəbul imtahanında abituriyentlər Azərbaycan dili və Tarix fənnindən çətinlik çəkməyiblər. Amma Ədəbiyyat fənnində müəyyən qədər çətinlik yaşayıblar. Ümumilikdə ikinci mərhələnin iyul ayında keçirilməsi abituriyentər üçün kifayət qədər vaxt yaradıb. Eyni zamanda, onlar may ayındakı imtahandan sonra öz zəif nöqtələrini daha yaxşı bildilər. Hesab edirəm ki, biz ikinci mərhələnin nəticələrində maksimum 400 balı görəcəyik".

Çimnaz Şahlar

# Ankara Qərblə hələ tam anlaşmayıb

Avropa və ABŞ Türkiyəyə qarşı fəaliyyət göstərən terrorçulara dəstəyini dayandırmalıdır

**"Həm daha təcavüzkar Rusiya, həm də FETÖ-yə qarşı birlikdə mübarizə aparmaq lazımdır". Bu sözləri NATO-nun Baş katibi Yens Stoltenberq İsveçin və Finlandiyanın xarici işlər nazirləri ilə görüşündə deyib.**



Baş katib Türkiyə, Finlandiya və İsveçə tutduqları konstruktiv mövqeyə görə təşəkkür edib. O, Madrid sammitində imzalanan üçtərəfli sənədə işarə edərək terrora qarşı mübarizənin prioritet olduğunu bildirib: "Ağıl və qəlb fəth etməyin ən yaxşı yolu həm daha aqressiv Rusiya, həm də FETÖ terroru ilə qarşılaşdığımız bütün təhlükəsizlik təhdidlərinə qarşı birlikdə mübarizə aparmaqdır". Qeyd edək ki, Türkiyə NATO-ya üzv olmaları üçün İsveç və Finlandiyadan terrorçu PKK-çılara ölkədə sığınacaq verməməsi və onların fəaliyyəti üçün şərait yaratmamasını tələb edir. Rəsmi Ankara İsveçdən 73 terrorçunun təhvil verilməsini istəyir. Məlumat üçün onu da bildirək ki, Finlandiyanın Xarici işlər naziri Pekka Haavisto və İsveçin XİN başçısı Ann Linde ölkələrinin NATO-ya üzvlüyü barədə protokolu imzalayıblar. Alyansın baş katibi Yens Stoltenberq həmin ölkələrin təşkilata üzvlüyünün rəsmi olaraq başlandığını elan edib. Deyib ki, bundan sonra hərbi blok daha da güclənəcək. Stoltenberqin sözlərinə görə, üzvlük prosesi normal vaxtdan daha tez, 1 ay müddətində başa çata bilər. Ekspertlərə görə, proseslərin nə ilə nəticələnəcəyini indidən demək çətindir. İsveç və Finlandiyanın Alyansa üzv olmaları NATO-nun maraqlarına uyğundur. Ən azından ona görə ki, təşkilat bir qədər də güclənəcək. Digər tərəfdən bu addım Rusiyanı növbəti dəfə aqressivləşdirəcək. İsveç və Finlandiyanın NATO-ya üzvlüyündən sonra yeni cəbhənin açılması da mümkündür.

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev "Şərq"ə açıqlamasında deyib ki, İsveç və Finlandiyanın NATO üzvlüyünə bir addım yaxınlaşması bu dövlətlərin tam və bərabərhüquqlu üzv olması anlamına gəlmir.** Ekspertin fikrincə, neytrallığa meyilli olan Finlandiya və neytral dövlət olan İsveçin sürətlə hərbi bloka daxil olmaq istəkləri başadüşləndir: "Rusiya Prezidenti V.Putin heç bir norma və qayda gözləmədən sərhəd qonşularına qarşı ideoloji və hərbi-siyasi taktika yürüdür. Hadisələrin inkişafı göstərir ki, Putinlə heç bir anlaşma mümkün deyil və münaqişə tərəflərdən birinin tam kapitulyasiyası ilə nəticələnəcək. Avropa və ABŞ Ukrayna-Rusiya müharibəsinə iki böyük qüvvənin qarşılaşması prizmasından yanaşaraq, Ukraynaya canlı qüvvə istisna olmaqla hər cür yardım edir. Bu dəstəyi sona qədər edəcəklər. Şübhəsiz, müharibə genişlənərək aktiv fazaya keçəcəyi təqdirdə NATO-nun canlı qüvvə ilə müdaxiləsi qaçılmaz ola bilər. O zaman hərbi blokun əsas qüvvəsi sayılan Türkiyə dövriyyəyə girmək məcburiyyətində qalar. Qərbin Türkiyə ilə münasibətlərində olan gərginlik ərəfəsində Ankara bundan imtina edərsə, Avropa Rusiyanın tapdağı altında qalar. Ona görə də hörmətli Ərdoğanın İsveç və Finlandiya qarşısına şərt qoyması doğru tələbdir. İsveç və Finlandiyanın Türkiyənin tələblərini qəbul etməsi və Stolberqin Türkiyənin dövlət maraqlarının əleyhinə çalışan təşkilatın fəaliyyətini məhdudlaşdırmaq barədə bəyanatı qanunauyğundur. Qərb ölkələrinin sözünü tutub-tutmayacağı yaxın həftələrdə bilinəcək. Ancaq Türkiyənin iki ölkəyə "yaşıl işıq" yandırması hələ prosesin yekunlaşması anlamına gəlməməlidir. Qərar NATO-ya üzv ölkələrin parlamentlərində ratifikasiya olunmalıdır. Avropalılar və ABŞ Türkiyəyə qarşı fəaliyyət göstərən terror qruplaşmalarına dəstəyi dayandırmasa, qərar Türkiyənin parlamentində təsdiqlənməyə bilər".

İsmayıl Qocayev

**Rusiya mediası Qaraqalpaq Respublikasından reportaj hazırlayıb. Rus KİV-ləri yerli əhalinin dilindən "Biz Qaraqalpaq xalqını qorumaq üçün Putinə müraciət etdik" iddiasını tirajlayırlar. "Qaraqalpaqlar Özbəkistanın ən çox rusdilli xalqlarından biri hesab olunur" qeydini vurğulamağı da unutmurlar.**



Analitiklərin qənaətincə, Özbəkistanda baş verənlər ilin əvvəlində Qazaxıstan hadisələri və Putinin Lukeşenkonun

# Özbəkistanda siyasi böhran dərinləşir

Daşkənd "müdaxilə riskini" aradan qaldırmaq, Rusiya bu kartı saxlamaq uğrunda döyüşəcək

dili ilə "Özbəkistan dərs çıxarmalıdır" xəbərdarlığı fonunda gözlənilən idi. Lakin hadisələrin inkişafını Mirziyoyev mümkün risklərə qarşı qabaqlayıcı gedişi müəyyən edib.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, Qaraqalpaq Respublikasının 1993-cü ildə Özbəkistana birləşməsi haqda müqavilə 20 illik idi.** Müqaviləyə görə, qaraqalpaqların suverenliyi və referendum yolu ilə ayrılmaq hüququ saxlanılır. Bu hüquqlar Özbəkistan Konstitusiyasında təsdiq olunur: "2013-cü ildə müqavilə bitəndən sonra Kərimov "müstəqillik" haqda eşidilən müəyyən səsləri inzibati resurslarla sakitləşdirdi. Bu səslər Kərimovun ölümündən sonra, xüsusilə 2019-cu ildə yenidən eşidilməyə başlandı. 2019-cu il Mirziyoyevin Ankara ilə daha yaxın təmaslar qurmağa başladığı, Türk Şurasına üzvlüyə razı olduğu tarixdi. Həmin tarixdə "Qaraqalpaq Respublikasının mühacirət hökuməti" elan edildi. Əsas fəaliyyət mərkəzi də Moskvadır. Özbəkistana qarşı təzyiq imkanları arasında praktiki baxımından iki rıçaq daha əlverişli görünür. Məqsəd Özbəkistan İslam Partiyasını fəallaşdırmaq və qaraqalpaqların müstəqilliyi, yaxud başqa ölkə ilə birləşməsi haqında istifadə etməsini aktuallaşdırmaqdır".

**A.Nərimanlıya görə, birinci kart Kərimovun dövründə tam olmasa da, böyük ölçüdə neytrallaşdırılıb:** "Mirziyoyev konstitusiyaya dəyişikliklə ikinci kartı da sıradan çıxarmaq istəyir. Bu addımı Qazaxıstan hadisələrindən sonra edilən xəbərdarlıq, eyni zamanda, Ukrayna müharibəsi ilə dəyişən şərtlər daha da zəruri edir. Nukusda yaşananlar da Mirziyoyevin həmləsinin önünü kəsmək məqsədi daşıyırdı. Daşkəndin geri çəkilməsi buna nail olduğunu göstərir. Hərçənd, prosesin hələ başlanğıcda olduğu ehtimalı daha böyükdür. Daşkənd "müdaxilə riskini" aradan qaldırmaq, Rusiya bu kartı saxlamaq uğrunda döyüşəcək".

İsmayıl

# Rusiya Tovuz sərhəddi yaxınlığında hərbi baza qurur

## Cavabımız aydındır, Azərbaycan da həmin rayonda Türkiyənin hərbi məntəqəsini yaratmalıdır



İsmayıl Qocayev

**Ermənistanın Aygepar kəndində Rusiyanın hərbi bazasının yaradılacağı deyilir. Bir müddətdir sözügedən kənddə rusların da iştirakı ilə tikinti işləri aparılır. Aygepar kəndi Azərbaycanın Tovuz rayonundakı Əlibəyli kəndinin 1 kilometrliyində yerləşir.**

Sovet vaxtı burada Yak-40 təyyarələri üçün enmə-qalxma zolağı olub. Erməni mediası yazır ki, Ermənistanın Tavuş vilayəti Berd rayonunun Aygepar kəndində bir aydan çoxdur ki, qızğın tikinti işləri gedir. Hətta hökumət saytları da yazır ki, Ermənistan ərazisindəki Rusiya hərbi bazasının dislokasiya ünvanlarının dəyişməsinə dair protokola uyğun olaraq Rusiya tərəfinə yeni torpaq sahələri və daşınmaz əmlak verilir. Ermənistanın Müdafiə naziri Suren Papikyan deyib ki, bu barədə hökumət qərarı var. Onun sözlərinə görə, sənəd işlənməli və Milli Məclisdə ratifikasiya olunmalıdır. Kənd sakinləri bildiriblər ki, burada Rusiya bazasının olması əlavə təhlükəsizlik qarantiyaları yaradardı. Xatırladaq ki, sərhədin bu sektorunda Azərbaycan-Ermənistan toqquşmaları 2020-ci ilin iyulunda baş vermişdi.

**AĞ Partiyanın sədr müavini Əhəd Məmmədli "Şərq"ə bildirib ki, Tovuzla sərhəddə rus hərbi bazasının yaradılması Rusiya və Ermənistanın ortaq qərarıdır. Partiya funksionerinin fikrincə, hərbi baza üçün Tovuz yaxınlığının seçilməsi təsadüfi deyil:** "Ermənistanda gözəl anlayırlar ki, Azərbaycanla növbəti müharibə əvvəlki kimi Qarabağ ərazisi ilə kifayətlənməyəcək. Növbəti müharibə meydanı Zəngəzur və indiki Ermənistan əraziləri olacaq. Ona görə də ermənilər rusların hərbi dəstəyi sayəsində sərhəddə özlərini qarantiyaya almaq barədə düşünürlər. İkinci Qarabağ müharibəsi məhz Tovuz hadisələri ilə başladı. Təbii ki, Azərbaycanla sərhəddə rus hərbi bazasının yaradılması, yaxud uzaqda yerləşən bazanın sərhədə çəkilməsi Kremlin də maraqlarına cavab verir. Moskva bununla İrəvanı özündən daha asılı vəziyyətə salır. Bizim cavabımız necə olmalıdır? Əgər Azərbaycanla sərhəddə, Tovuz istiqamətində hansısa rus bazası yaradılarsa, elə həmin rayonda Türkiyənin hərbi məntəqəsini qurmalıyıq. Rusiyanın Cənubi Qafqazdakı hərbi eskalasiyasına Türkiyənin bölgədə daha güclü yerləşməsi, dərindən kök salması ilə cavab vermək lazımdır. Bu, bizim milli maraqlarımıza və təhlükəsizliyimizə cavab verir".

**Azərbaycan Hava Yolları(AZAL) vətəndaşlara təqdim etdiyi xidmətin olduqca bahalı olması aylardır, illərdir müzakirə olunur. Quru yollarının tamamilə bağlı olduğu bir dönəmdə AZAL-ın aviabilet qiymətlərini yüksək qiymətə təklif etməsi əhali arasında narazılıq yaradır.**

Əksər sosial şəbəkə istifadəçisinin fikirincə, bahalaşma səbəbi bu sahədə rəqabətin yaradılmaması və digər hava şirkətlərinə şansın tanınmamasıdır.



# "AZAL xarici şirkətlərə imkan vermir"

## "Hava nəqliyyatı infrastrukturu özəl, biznes maraqları çərçivəsində idarəetməyə verilməlidir"

**Dövlətin hava nəqliyyatı ilə sərnişin daşıma siyasətinin düzgün qurulmadığını iddia edən iqtisadçı-ekspert Rəşad Həsənov "Şərq"ə bildirib ki, AZAL xarici şirkətlərin bazara girməsini əngəlləyir:**

"Bu istiqamətdə kifayət qədər ciddi problemlər var. Çunki hava nəqliyyatı xidməti göstərən şirkət eyni zamanda hava nəqliyyatına dair infrastrukturları yəni hava limanları və naviqasiyanı idarə edir. Belə olduğu təqdirdə təbii ki, AZAL öz maraqlarını önə çəkəcək və xarici şirkətlərin bazara daxil olmasının qarşısını almaq üçün bürokratik addımlar atacaq.

AZAL "slot"ların ədalətsiz paylanmasından tutmuş infrastrukturun istifadəsi, rəqabətli qiymət təklifinə maneələrin yaradılması kimi məsələlərin hər birinə müdaxilə edir.

Bunun nəticəsində də, Azərbaycan xalqı bahalı xidmətlərdən istifadə edir. Ölkədə demək olar ki, "lokoster" yoxdur. İki istiqamətdə uçuşlar həyata keçirilir. Gürcüstandan 40-50 istiqamətdə vizair və 10 istiqamətdə rainair uçur. Belə hallar nəzərə alınaraq hava nəqliyyatı infrastrukturu AZAL-dan alınmalı və özəl, biznes maraqları çərçivəsində idarəetməyə verilməlidir. Gürcüstanın Kutaisi hava limanı türklərin TAB şirkətinə verildikdən sonra 2013-2019-cu illər ərzində daşıdığı sərnişin sayını artırdı.

Əvəzində Azərbaycanın ikinci dərəcəli hava limanları Gəncə, Qəbələ, Lənkəran limanlarında sərnişindaşıma aşağı düşdü. Yəni ki, idarəetmə fərqininin nəticəsini bu 5-6 ildə dəqiq analiz etmək olar".

**Nihat Müzəffər**



**ki, Qərb ölkələri Rusiya ilə açıq qarşıdurmaya getmək, müharibəyə başlamaq niyyətində deyil. Ekspertə görə, Qərb ölkələri yaxşı başa düşürlər ki, 4 aydır davam edən Rusiya-Ukrayna müharibəsi öz nəticəsini verməkdədir:** "Sanksiyalar tədricən Rusiyanı dizə gətirir. Moskva nə qədər inkar etsə də, mövcud vəziyyət ortadadır və getdikcə daha da pisləşməkdədir. Belə məqamda Qərb ölkələri öz qoşunlarını savaş meydanına sürmək fikrində deyil. Ukraynaya sadəcə silah-sursat və maliyyə dəstəyi göstərməklə kifayətlənirlər. Bu üsul Qərb üçün daha məqbuldur. Ona görə də açıq şəkildə müharibəyə qoşulmayacaqlarını vurğulayırlar. Müharibənin öz torpaqlarına sıçramasını istəmirlər. Bu, o anlama gəlmir ki, ABŞ və Avropa dövlətləri Ukraynaya yardımdan, dəstək verməkdən boyun qaçırır. Rusiyaya qarşı tətbiq olunan sanksiyalar öz bəhrəsini verdiyi üçün canlı qoşunları irəli sürməyə ehtiyac görmürlər. Rusiya müharibə dövründə neft-qazdan 100 milyard dollardan artıq gəlir əldə etsə də, iqtisadi vəziyyətdən olduqca mürəkkəb mərhələyə qədəm qoyub".

# Böyük müharibə olmayacaq

## Rusiyaya qarşı tətbiq olunan sanksiyalar bəhrəsini verib

**Avropa Birliyinin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrell növbəti dəfə Rusiya-Ukrayna müharibəsindən danışıb. Borrel deyib ki, Avropa Birliyi Rusiyanın Ukraynada apardığı hərbi əməliyyata qarşı sanksiyaları daha da gücləndirəcək.**

Amma Rusiya ilə müharibə aparmaq niyyətimiz yoxdur. Borrell həmçinin bildirib ki, Rusiyaya qarşı tətbiq edilən sanksiyalar onun hərbi-sənayesinə böyük təsir edir və neft hasilatına mane olur. Qərb ölkələrindən bənzər açıqlamalar dəfələrlə gündəmə gəlib. Hətta NATO Baş katibi Yens Stoltenberq də Rusiya ilə birbaşa müharibəyə girməyəcəklərini vurğulayıb. Ancaq bununla yanaşı, ABŞ və Avropa ölkələri Ukraynanın Rusiya qarşısında məğlub olmasına imkan verməyəcəklərini, Kiyevi hər cür dəstəklə təmin edəcəklərini deyiblər. Qərb dövlətlərinin Ukraynanı silah-sursat və maliyyə ilə təmin etdiyi ortadadır. Ancaq bir qrup hesab edir ki, NATO-nun, Avropa ölkələrinin "Rusiya ilə savaşmayacağıq" şəklində açıq bəyanatları Moskvanı ruhlandırır və savaşın davam etməsinə səbəb olur. Ona görə də Qərb Rusiyanı sadəcə sanksiyalarla deyil, açıq-aşkar savaşla hədələməlidir. Təbii ki, bundan sonra da Kremlin işğalçılıq siyasətinin sona çatacağı bəlli deyil.

> Belə məqamda Qərb ölkələri öz qoşunlarını savaş meydanına sürmək fikrində deyil

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov "Şərq"ə bildirib**

*S.Hümbətov vurğulayıb ki, Qərb ölkələri Rusyadan neft-qaz asılılığını mümkün qədər azaltmağa çalışır:* "Orta Asiya, Azərbaycan, Misir, İran, Əlcəzair, Qatar, hətta Norveç və ABŞ-dan sıxılmış qaz almaqla Rusiyanın neft-qaz ticarətinə böyük zərbə vurmaq istəyirlər. Qərbin sanksiyalarının nəticəsidir ki, Çin rəhbəri Rusiya Prezidenti V.Putinin Moskvaya dəvətini geri çevirib. Əksər ölkələr Rusiya əleyhinə fokuslanır. Ukraynaya hərtərəfli dəstək verməklə Rusiyanı məğlub etməyə, sındırmağa cəhd göstərirlər. Moskvaya birbaşa müharibə elan etmək Qərb ölkələri üçün də faydalı olmaz".

**İsmayıl Qocayev**

# "Parklanmadan yığılan pul büdcəyə yox, ciblərə gedir"

## Məhərrəm Zülfüqarlı: "İcra hakimiyyətlərinin xüsusi nəzarəti ilə problem aradan qalxa bilər"

Çimnaz Şahlar



**Paytaxtın aktual problemlərindən biri də parklanma məsələsidir. Vaxtaşırı Bakı sakinlərinin parklanma ilə bağlı şikayətlərinin şahidi oluruq. Sürücülər qanunsuz parklanma pulu tələb edən şəxslərdən, piyadalar isə səkilərin parklanma ərazisinə çevrilməsindən narazıdırlar.**

Xırdalan şəhərinin Heydər Əliyev prospektində yerləşən mebel mağazasının sahibinə də bununla bağlı xəbərdarlıq edilib. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin əməkdaşı, polis mayoru Anar Qafarov səkini zəbt edən şəxs barədə bildirib ki, növbəti dəfə belə hal baş verərsə, daha ciddi tədbirlər görüləcək.

**Paytaxtın mövcud parklanma problemi haqqında "Şərq"ə danışan Vətəndaş Cəmiyyətinə Yardım Assosiasiyası Seçki Qərargahının rəhbəri, professor Məhərrəm Zülfüqarlı bildirib ki, parklanma məsələsi çox problemlidir.**

"Bir müddət bununla bağlı kampaniyalar keçirildi, bəziləri cərimələndi. Amma hələ də bu problem qalmağa davam edir. Bunun günahkarı isə sahibkarlardır. Onlar bir nəfərə jilet geyinidirir və pul yığdırır. Nəticədə nə çek verilir, nə də büdcəyə pul köçür. Bu gün istənilən obyektin qabağında parklanma üçün pul tələb edən insanları görə bilərsiniz. Məsələnin həlli üçün parklanma pulu istəyən şəxsi cərimələmək lazım deyil. Ona kim bu icazəni veribsə, onu cərimələmək lazımdır".

**M.Zülfüqarlı problemin həll yollarından da danışıb. O qeyd edib ki, bunu kökündən həll etmək lazımdır:** "Düşünürəm ki, buna Bakı Şəhər İcra Hakimiyyəti özü nəzarət etməlidir. Öncələr xüsusi aparatlar quraşdırılmışdı. Onlar sayəsində büdcəyə müəyyən qədər pul gedirdi. İndi demək olar ki, parklanmadan büdcəyə pul getmir, yalnız ciblərə gedir. İcra hakimiyyətlərinin xüsusi nəzarəti ilə problem aradan qalxa bilər. İnkişaf etmiş ölkələrin təcrübələrindən istifadə etmək olar".

# İrəvanda Azərbaycana məxsus tarixi-dini abidələr çox olub

## Faiq Ələkbərli: "Təkcə Təpəbaşı məhəlləsi, Göy məscid deyil, bütün abidələrimizə sahib çıxmalıyıq. Tarixi bölgəmizi vəhşi, dağıdıcı ermənilərin öhdəsinə buraxa bilmərik"

**İrəvan və şəhərin Təpəbaşı məhəlləsi ilə bağlı UNESCO-ya müraciət ünvanlanıb. İrəvan, o cümlədən şəhərin Təpəbaşı məhəlləsində yerləşən Azərbaycan xalqının milli-mədəni, tarixi irsinə qarşı Ermənistanın həyata keçirdiyi mədəni soyqırımı prosesi ilə bağlı Azərbaycanın bir qrup elm xadimi və ictimaiyyət nümayəndələri tərəfindən UNESCO-nun Baş direktoru Odre Azuleyə müraciət ünvanlanıb.**



Onu da diqqətə çatdıraq ki, ermənilər İrəvan şəhərində, Təpəbaşı məhəlləsindəki Göy məscidi də "İran məscidi" kimi təqdim edirlər. Tarixçilər isə bildirirlər ki, Göy məscidlə bağlı bütün sənədlər Azərbaycan arxivindədir. Təkcə Şeyxülislamlıq arxivində də bununla bağlı kifayət qədər sənəd var. İran tərəfindən Göy məscidin İran məscidi adlandırılması qəbuledilməzdir. Göy məscid İrəvanda salamat qalan yeganə məsciddir. Bu məscid də İrəvanda Təpəbaşı məhəlləsinin ərazisindədir. Göy məscid Hüseynəli xan tərəfindən inşa edilib. Son araşdırmalarda Hüseynəli xanın məhz Göy məsciddə dəfn olunduğu barədə məlumatlara da rast gəlinir. Göy məscidin həyətindəki 1790-cı ilə aid daş kitabə xanın ailəsindən olan qadınlardan birinə aiddir. 1831-1920-ci ilə qədər İrəvanda yaşayanların əksəriyyəti məhz azərbaycanlılar olub. Bu gün də dünyada tanınmış tədqiqatçılar Göy məscidin İran məscidi adlandırılmasına gülürlər. Ona görə də Göy məscidin İran məscidi adlandırılmasına son qoyulmalıdır.

**Türkoloq-alim, Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşı Faiq Ələkbərli "Şərq"ə açıqlamasında bildirib ki, İrəvan və şəhərin Təpəbaşı məhəlləsi ilə bağlı UNESCO-ya müraciət müsbət və zəruri addımdır. Alimin sözlərinə görə, İrəvan və Təpəbaşı məhəlləsi, Göy məscid və s. mədəni irsimiz Azərbaycan tarixinin bir hissəsidir:** "İrəvandakı tarixi abidələrin, islam məbədlərinin hamısı Azərbaycan türklərinin adıyla bağlıdır. Ona görə də müraciət ciddi şəkildə gündəmdə saxlanmalı, UNESCO-dan müraciətə obyektiv və ədalətli mövqe bildirməsi tələb olunmalıdır. İrəvandakı tarixi abidələrimizin, mədəni irsimizin, Göy məscidin məhz Azərbaycana, xalqımıza aid olması faktı təkcə bizim alimlər tərəfindən dilə gətirilmir. Dünyanın bir çox əcnəbi tarixçiləri də İrəvanın və oradakı tarixi-mədəni irsin ermənilərə yox, azərbaycanlılara aid olduğunu qəbul edirlər. Göy məscidin erməni saxtakarlığı ilə "İran məbədi" adlandırılması isə yolverilməzdir. Göy məscidin İranla yaxından-uzaqdan əlaqəsi yoxdur. İnanıram ki, beynəlxalq qurumlar müraciətimizə müsbət cavab verəcək. Dünya ictimaiyyəti, qlobal təşkilatlar yaxşı dərk edir ki, reallıqlar tamamilə dəyişib. Məsələlərə baxışda yeni mərhələyə qədəm qoyulub. Erməni yalanları demək olar ki, işləmir. Dünyanın bir çox ölkəsində erməni uydurmaları ifşa olunmaqdadır. Söhbət ondan gedir ki, erməni yalan maşını dövlətlərin özlərinə artıq ziyan verməkdədir. Ona görə də əksər ölkələrdə və beynəlxalq qurumlarda ermənilərə yanaşma dəyişməkdədir".

**F.Ələkbərli qeyd edib ki, daha sonra məhv edilsə də, mahiyyəti dəyişdirilsə də, İrəvanda Azərbaycana məxsus tarixi-dini abidələr çox olub:** "Təkcə Təpəbaşı məhəlləsi, Göy məscid deyil, bütün abidələrimizə sahib çıxmalıyıq. Tarixi bölgəmizi vəhşi, dağıdıcı ermənilərin öhdəsinə buraxa bilmərik. Çünki öz mədəniyyətimizdir. Əminik ki, indiki Ermənistandan qovulmuş minlərlə soydaşımız gələcəkdə yenidən ata-baba yurdlarına dönə biləcəklər. Bu, əvvəl-axır baş verməlidir. Bütün mümkün vasitələrdən istifadə edərək təbii haqlarımızı tələb etməliyik".

**İsmayıl Qocayev**

# Gürcüstan ev sahibliyi etməyə hazırdır

## Azərbaycan və Ermənistan deputatlarının Tbilisidə görüşünün keçirilməsi təklif olunur

**"Gürcüstan sülh naminə dialoqu təşviq etmək məqsədilə Azərbaycan və Ermənistan parlamentləri üzvlərinin Tbilisidə görüşünü təşkil etməyə hazırdır".**




"Report"un yerli bürosu xəbər verir ki, bunu Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri Nikoloz Samxaradze Böyük Britaniyanın Birminqem şəhərində keçirilən ATƏT Parlament Assambleyasının (PA) sessiyasının son iclasında çıxışında deyib.

Cənubi Qafqazda sabitlik və əmin-amanlığın əhəmiyyətindən danışan komitə sədri bölgədə sülhün təmin olunmasında Gürcüstanın sabitləşdirici rol oynamağa hazırlığını ifadə edib.

"Sülh dialoqunun təşviqi məqsədilə azərbaycanlı və erməni həmkarlamızı Tbilisidə qəbul etməyə hazırıq", - o deyib.

*Qeyd edək ki, N.Samxaradze Gürcüstanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəridir. O, PA-nın sessiyası çərçivəsində qurumun Demokratiya, İnsan haqları və Humanitar məsələlər üzrə Komitəsinin sədri seçilib.*

# Özbəkistan ehtiyatlanır

## Rusiya Krımı ilhaq etdiyi kimi Qaraqalpaqıstanı da ilhaq edə biləcəyi mesajını verir



İsmayıl Qocayev

**Özbəkistan ərazisinə 5 reaktiv raket düşüb. Bu barədə Rusiya mediası məlumat yayıb. Raketlərin Əfqanıstandan buraxıldığı ehtimal edilir. Raketlərin dağıntı və tələfata səbəb olmadığı deyilir.**

”Sputnik Tacikistan”ın Əfqanıstanın Bəlx vilayətindəki mənbəsinin məlumatına görə isə raket hücumu Şurtep rayonunun Tokay kəndindən edilib. Prinsip etibarilə, Özbəkistan sərhədində bu tipli insidentlər tez-tez baş verir. Lakin budəfəki hadisə heç də əvvəlkilər kimi sadə deyil və pərdəarxası məqamları var. Məsələ ondadır ki, atılan mərmilərdən biri həmin ərazidəki futbol meydançasına, digəri isə yaşayış məntəqələrindən kənara düşüb. Yəni məqsəd heç də terror aktı törətmək və ya hansısa obyekti məhv etmək olmayıb. Digər tərəfdən hadisə ilə bağlı hələlik heç bir radikal qruplaşma məsuliyyəti üzərinə götürməyib. Bu, hadisənin heç də terror aktı olmadığını sübut edir. Əfqanıstan tərəfi hadisənin təfərrüatlarını araşdırsa da, verilən ilkin məlumatda deyilir ki, naməlum şəxslər ”Suzuki” markalı avtomobilə raketlər quraşdıraraq Özbəkistan tərəfə atıblar. Hadisədən sonra maşının tamamilə yanması və hadisə iştirakçılarının ərazini tərk etməsi də bunun sadə bir hadisə olmadığını göstərir. Açıq görünür ki, hadisəni törədənlər arxalarında iz qoymaq istəmir.

**Siyasi şərhçi Turan Rzayev ”Şərq”qə bildirib ki, hadisənin baş verdiyi gün Rusiya Prezidenti Vladimir Putin və Özbəkistan lideri Şövkət Mirziyoyev arasında telefon danışığı baş tutub. Analitik bildirib ki, dövlət başçıları aktual məsələləri, o cümlədən ticari-iqtisadi əməkdaşlığı müzakirə ediblər:** ”Bundan başqa, Putin Özbəkistan rəhbərliyinin Qaraqalpaqda vəziyyəti sabitləşdirmək səylərini dəstəklədiyini bildirib. Putinin Mirziyoyevə Qaraqalpaqdakı vəziyyətlə bağlı zəng edəcəyi bəlli idi. Bu isə özlüyündə proseslərin Kremlin hazırladığı plan əsasında icra edildiyini sübut edir. Özbəkistan sərhədinə atılan 5 raket və hadisə iştirakçılarının arxalarında iz buraxmaması bu hadisənin Qaraqalpaqıstanda baş verən hadisələr fonunda baş verməsi və nəhayət Putinin Mirziyoyevə zəngi hadisənin Rusiya tərəfindən törədildiyini düşünmək üçün əsaslar yaradır. Kreml bununla rəsmi Daşkəndə bir müddətdir rus mediasında səslənən yazılarda Qaraqalpaqıstanı ”Özbəkistanın Krımı” kimi təqdim edib. Yəni Rusiya Krımı ilhaq etdiyi kimi Qaraqalpaqıstanı da ilhaq edə biləcəyi mesajını verir. Prinsip etibarilə, Özbəkistan konstitusiyasında Qaraqalpaq Muxtar Respublikasının referendum yolu ilə müstəqilliyini elan etmək və ya başqa ölkəyə birləşmək səlahiyyəti öz əksini tapıb və son hadisələr də göstərdi ki, Özbəkistan bu səlahiyyəti qaraqalpaqlardan bu tezlikdə ala bilməyəcək”.

Ekspert vurğulayıb ki, Rusiya Prezidenti Vladimir Putinlə yanaşı, Özbəkistan rəhbəri Şövkət Mirziyoyevlə Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan arasında da telefon danışığı olub: ”Ərdoğanın Mirziyoyevi təmkinli davranmağa çağırması, Kremllə üz-üzə gəlməməklə bağlı məsləhət verməsi mümkündür. Aydındır ki, Özbəkistan Qaraqalpaq məsələsini uzatsaydı, Rusiya prosesə daha radikal formada müdaxilə edər, Ukraynadakı senari etnik konflikt halında Özbəkistanda cərəyan edərdi. Aydın məsələdir ki, qaraqalpaqlarda məmnuniyyətlə rusları regiona dəvət edərdi. Bu isə türk birliyində çalışan Türkiyə üçün heç də arzuolunan senari deyil”.

# Yaponlar Bakıda yox, rayonlarda zavod açsın

## Bununla paytaxtın yükünü azaltmaq, regionlarda yeni iş yerləri yaratmaq olar





**Yaponiyalı iş adamı Taro Savada ”Arb” televiziyasında yayımlanan ”İşgüzar Bakı” verilişində qonaq olub. Azərbaycandakı biznes mühiti ilə bağlı yüksək fikirdə olan Savada deyib ki, yüzlərlə yaponiyalı sahibkar Bakıda iş qurmaq, zavod açmağı düşünür.**

Yaponiyalı iş adamı Azərbaycanda xarici şirkətlərin yaradılması üçün münbit şəraitin formalaşmasında dövlətin dəstəyini müsbət amil kimi dəyərləndirib. Onun sözlərinə görə, burada biznes qurma prosesinin xeyli asanlaşması istənilən sahədə xarici investorların Azərbaycana sərmayə qoymasına imkan yaradır: ”Digər inkişaf etməkdə olan ölkələrlə müqayisədə Azərbaycan münbit biznes mühitinə görə ən yaxşı 10 ölkə arasında ilk yerdədir. Hətta Yaponiyada belə şirkət açmaq, bizneslə məşğul olmaq mürəkkəb proses sayılır.

**T.Savadanın açıqlamasını ”Şərq”ə şərh edən iqtisadçı-ekspert Rauf Qarayevin fikrincə, Yaponiya hökuməti əgər iş qurmaq istəyirsə zavodlarını bölgələrdə açsın:** ”Regionlarda olan mütəxəssislərin Bakıya axını da, regionlarda olan iş yerlərinin azlığı ilə bağlıdır. Misal üçün, Sabirabadda özəl iş yeri kənddə əkin əkmək və rayonda market, mağaza açmaqdır. Bakıda işləyən sabirabadlıdan soruşanda ki, niyə geri dönmürsən, deyir paytaxtda olan şərait Sabirabadda yoxdur. Halbuki, başlanğıc olaraq paytaxtın yükünü azaltmaqla xarici investorları regionlara cəlb etmək olar. Bunu etmək üçün həmin bu investorlara onların gileyləndiyi rüsumları azaltmaqla iş prosesinə qoşmaq olar. Sadəcə cəlbedici təkliflərlə, dövlət təminatı ilə bunları etmək olar. Bu həm də yeni kadrların ortaya çıxmasına kömək edəcək. İnvestora sakit, onun biznesinə xələl gəlməyən, münasib və dövlət təminatlı yer lazımdır”.

**Şəymən**





**Ermənistanın paytaxtı İrəvan şəhərində Azərbaycan xalqına məxsus sonuncu maddi-mədəni irs nümunələri də məhv edilmək üzrədir. Bu ölkədə Azərbaycan xalqının tarixi-mədəni irsinin dağıdılması, silinməsi prosesi 1990-cı illərdən sonra geniş vüsət alıb. İşğal dövründə həmin ərazilərdə vandalizm paralel şəkildə həyata keçirilib.**

# Ermənilər Təpəbaşı məhəlləsini yer üzündən silmək istəyir

## Abidələrimizin qorunması problemi beynəlxalq danışıqlar masasına gətirilməlidir

İrəvan şəhərinin tarixini bu gün özündə əks etdirən və azərbaycanlıların mədəni irsinin yeganə sübutu olaraq qalan məkan Təpəbaşı məhəlləsidir. Lakin Ermənistan İrəvan, o cümlədən şəhərin Təpəbaşı məhəlləsində yerləşən Azərbaycan xalqının milli-mədəni, tarixi irsinə qarşı mədəni soyqırımı prosesi gerçəkləşdirib.

Tarixən azərbaycanlıların yaşadığı və hazırda 16 hektara qədər kiçildilən Təpəbaşı məhəlləsi yer üzündən silinmək təhlükəsi ilə qarşı-qarşıya dayanıb. Ermənistan rəhbərliyi artıq bir müddətdir ki, Təpəbaşı hissəsini tamamilə dağıdaraq yerində müasir yaşayış binaları inşa etməyi planlaşdırır. Onlar bu yolla bir zamanlar İrəvanın əsas sakinləri olan azərbaycanlıların sonuncu nişanəsini - tarixi kodunun məhvinə nail olmaq istəyirlər.

Qeyd edək ki, Azərbaycanın elm və ictimaiyyət xadimləri mədəni soyqırımı ilə bağlı UNESCO-nun Baş direktoru Odre Azuleyə müraciət ünvanlayıblar. Müraciəti 102 nəfər tanınmış elm və ictimai xadim imzalayıb.

**Mövzunu ”Şərq”ə dəyərləndirən AMEA Elmi Tarixi İnstitutunun elmi katibi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyev bildirib ki, hadisənin kökü 1918-19-cu ilə dayanır:** ”AXC dönəmində İrəvan şəhəri razılaşma ilə Ermənistana veriləndən bəri ermənilərin əsas hədəflərindən biri azərbaycanlıların izini itirməkdən ibarətdir. Azərbaycan tarixinə məxsus abidələr söküldü, binaların fasadları dəyişdirildi. Qədim abidələrin üzərindəki yazılar silinib erməni xaçları çəkildi.

Sovet rəhbərliyi, rəsmi Moskva da etiraz müraciətlərimizə baxmayaraq, buna göz yumurdu. 1988-ci ildən azərbaycanlılar torpaqlarından çıxarıldıqdan sonra bizə aid mədəni nümunələr, İrəvanda mövcud olan məscidlər dağıdıldı.

Ermənilər Azərbaycana psixoloji təyziq göstərməyə çalışdılar. Bizim mədəni abidələrə nə qədər bağlı olduğumuz onlara bəllidir. Təkcə UNESCO-ya məktub yazmaqla kifayətlənməməliyik. 1990-cı illərdən bəri dəfələrlə müraciət ünvanlamışıq, lakin reaksiya verməyiblər. İşğaldan azad edilən torpaqlarda sayı-hesabı olmayan abidələrimiz dağılıb”.

**Z.Əliyevin qənaətincə, abidələrin qorunması problemi beynəlxalq danışıqlar masasına gətirilməlidir:**

”Eyni zamanda danışıqlar gündəliyində tarixi və mədəni abidələrin qorunması sənədi olmalıdır. Azərbaycanlıların Ermənistana indi qayıtması mümkün deyil, yalnız 3-10 il ərzində, regionda sülhün bərpasından sonra qayıtmaq olar. Ora qayıdanda bizə məxsus bir tikili belə tapmayacağıq. Çünki ermənilər mədəni abidələri silməyə çalışırlar.

Tarixi abidələrimiz sənədləşməlidir. Prezidentin siyasi iradəsi, təsiri daha çoxdur, nəinki UNESCO-nun. Ermənistan tərəfi başa düşür ki, 44 günlük müharibənin qələbəyə aparanı İlham Əliyevdir. Dövlət başçısının söylədiyi fikir artıq ermənilər üçün qəbuldur”.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq müdafiəçisi Çingiz Qənizadə bildirib ki, ermənilər İrəvan şəhərindəki Təpəbaşı məhəlləsinin simasını tamamilə dəyişdirib:**

“Müəyyən tarixi izlər silinib. Ümumiyyətlə, ermənilər hər zaman azərbaycanlılara və türklərə məxsus nə varsa, itirmək, yox etmək uğrunda çalışıblar. Bunun sübutunu Təpəbaşı ilə bağlı milli-mədəni, tarixi irsimizin məhv edilməsində aydın şəkildə görürük. UNESCO-ya edilən müraciətin nəticəsini beynəlxalq hüquq işlədiyi halda görə bilərik. İşğal olunmuş ərazilərimizdə vandalizm törədilib. Bütün tarixi memarlıq abidələri, məscidlərimiz darmadağın, şəhərlərimiz yerlə-yeksan edilib.

Azərbaycan öz haqq səsini çətinliklə dünya ictimaiyyətinə və xalqlarına çatdıra bilib. Beynəlxalq təşkilatlar isə susmaqda davam edir. Dəfələrlə UNESCO-nu işğal edilmiş ərazilərimizə dəvət etmişik ki, vandal hərəkətlərə yol verildiyini görüb, qiymət verilsin.

Eyni zamanda Ermənistanın cəzalanması üçün addımlar atılsın. Əgər öz ərazimizdə bu məsələlərə nail ola bilməmişiksə, tarixən bizim olan İrəvanda Təpəbaşı məhəlləsini də ermənilərin dağıtdığı, tarixi izlərimizi itirdikləri və digər vəhşi, mədəniyyətsiz hərəkətlərinə hər hansı bir hüquqi qiymət verilməsini təşkil edə bilmərik. Özümüzü aldatmayaq. Çünki bu gün beynəlxalq hüquq fəaliyyət göstərmir.

Buna iri dövlətlərin apardığı müharibələrdə, Rusiyanın Ukraynaya hücumunda şahid oluruq.

Həmçinin uzun illərdir, beynəlxalq təşkilatların və beynəlxalq hüququn Azərbaycanın işğala məruz qalmasına göz yummasında da müşahidə edirik. Hesab edirəm ki, Təpəbaşı məhəlləsi ilə bağlı nə qədər haqlı olsaq da, beynəlxalq təşkilatlar ona rəy verməyib, müdafiə etməyib, dəstəyini nümayiş etdirməyəcək”.

**Aygün Tahir,**
**Sücayət Mehti**



# Paşinyan da təxribatçı, qızışdırıcı mövqe sərgiləyir

## “Ermənistan hakimiyyəti bütün vasitələrlə çalışır ki, Azərbaycanı hərbi güc tətbiq etməyə təhrik etsin”

**Ermənilər bir yandan Kəlbəcəri atəşə tuturlar. Digər yandan Ermənistan Silahlı Qüvvələrinin bölmələri Azərbaycanın Laçın rayonu ərazisində yerləşən Qaragöl istiqamətində sərhəd bölgəsini minalayırlar.**

Bununla yanaşı, Ermənistan Müdafiə Nazirliyi ordunu gücləndirmək və revanş götürmək üçün hərbi təhsil sahəsində islahatlar həyata keçirir, hərbi akademiya yaratmağa hazırlaşır. Ekspertlərə görə, bu addımlar Ermənistanın heç də sülh tərəfdarı olmadığını açıq-aydın sübut edir.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov ”Şərq”ə deyib ki, rəsmi İrəvanın ABŞ və Fransa ilə səylərini birləşdirməsi, bədnam Minsk qrupunu yenidən aktivləşdirmək cəhdləri, Qarabağ erməniləri üçün ”status” əldə etmək təşəbbüsləri siyasi müstəvidə atılan təxribatçı addımlardır. Onun sözlərinə görə, bütün bunlar sülhə yox, sülh prosesinin tormozlanmasına xidmət edir:** ”Görünən budur ki, rəsmi İrəvan hazırkı mərhələdə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasını istəmir. Həm Moskva, həm də Brüssel razılaşmalarını hər vəchlə pozmağa çalışır. Biz əvvəllər radikal erməni müxalifətinin revanşizmə can atmasını müşahidə edirdiksə, ancaq indiki məqamda isə Paşinyan hakimiyyətinin də təxribatçı, qızışdırıcı mövqe tutduğunu görürük. Ermənistan hakimiyyəti bütün vasitələrlə çalışır ki, Azərbaycanı hərbi güc tətbiq etməyə təhrik etsin. Bu da Nikol Paşinyanın və onun komanda üzvlərinin son vaxtlar verdiyi sülh bəyanatlarının saxtakar manevrlərdən başqa bir şey olmadığını təsdiqləyir. Ancaq bu manevrlərin hamısı Ermənistanın özü üçün zərərlidir”.

**Ə.Hüseynovun fikrincə, müstəqil siyasət yürütmək qabiliyyəti olmayan Nikol Paşinyanın tez-tez havadarlarını dəyişməsi, gah Moskvaya, gah da Paris və Vaşinqtona yönəlik mövqe sərgiləməsi Ermənistanın oturuşmamış dövlət olduğunu göstərir:** ”Paşinyanın sələfləri də bu cür sərsəm siyasət yürütmələri ilə yadda qalıblar. Təəssüf ki, hazırkı Ermənistan rəhbərliyi də eyni səhvləri təkrarlayır. Ermənistanda ağıllı, müdrik liderlərin olmaması Cənubi Qafqazda sülhün bərqərar olmasını əngəlləyir”.

**İsmayıl Qocayev**

# Ölümdən qorxanlar "Prius" taksilərdən imtina edirlər

## Əsl günahkar sürücüləri səkkiz saatdan artıq işlədən sahibkar və şirkətlərdir

Çimnaz Şahlar




**Son zamanlar ”Toyota Prius” markalı avtomobillərlə törədilən qəzalara tez-tez rast gəlirik. Mütəmadi olaraq, qəza xəbərlərində bu markalı avtomobillərin adı çəkilir. Dünən yenə də ”Toyota Prius” markalı avtomobilin 40 nömrəli avtobusla toqquşması nəticəsində yol-nəqliyyat hadisəsi baş verib. Bu barədə Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyindəki Bakı Nəqliyyat Agentliyi məlumat yayıb.**

”Daşıyıcı şirkətdən verilən məlumata əsasən qəza nəticəsində avtobusda olan sərnişinlərdən dörd nəfər və minik avtomobilinin sürücüsü xəsarət alıb”, - məlumatda bildirilib.

Bəs, ”Toyota Prius” markalı avtomobillərin daha çox qəza törətməsinin səbəbi nədir?

**Sualımızı cavablandıran nəqliyyat üzrə ekspert Elməddin Muradlı ”Şərq”ə açıqlamasında bildirib ki, səbəbkar həmin avtomobilləri idarə edən intizamsız, iş və istirahət rejimi bəlli olmayan, sağlamlığı yoxlanılmayan sürücülərdir**: ”Onlar transmilli şirkət sayılan ”Uber” və ”Bolt” kimi şirkətlərdə işə düzəlirlər və gündəlik onlarla sərnişini daşıyırlar. Şəxsən mənim ətrafımda nə qədər insan var ki, taksi sifariş verəndə ”Toyota Prius” gəlməsin deyə şərt qoyurlar. Çünki həmin markalı avtomobili sürənlər o qədər dəhşətli mənzərə ortaya qoyublar ki, vəziyyət qorxunc həddə çatıb. Ona görə sağlamlığını düşünən vətəndaşlar ”Prius” taksilərdən imtina edirlər. Yenə də qeyd edirəm ki, burada günah avtomobil markasında yox, onu idarə edən sürücülərdədir”.

**E.Muradlı qeyd edib ki, daha dərinə baxsaq, əsl günahkar sürücüləri səkkiz saatdan artıq işlədən sahibkar və şirkətlərdir:** ”Düşünürəm ki, bu problemi kökündən həll etmək üçün prosesin dərininə enmək lazımdır. Həmin adını çəkdiyim şirkətlər sərnişindaşıma ilə bağlı xarici transmilli şirkət olsa da, Azərbaycanda hegemonluq edirlər və qiymət siyasətini müəyyənləşdirirlər. Bu, düzgün deyil. Qiymət siyasətini Azərbaycan dövləti müəyyənləşdirməlidir, Tarif Şurası qərar verməlidir. Daha sonra sürücülərin işə götürülmə prosesi müəyyən olmalıdır. Biz ilk növbədə taksi sürücüsü dedikdə kimi nəzərdə tutduğumuzu aydınlaşdırmalıyıq. Bu gün buna aid heç bir standart yoxdur. İstəyən hər kəs taksi sürücüsü ola bilir”.

Ekspertin sözlərinə görə, sözügedən şirkətlər barədə nə qədər yazılsa da, heç bir tədbir görülmür: ”Artıq ehtimal edirəm ki, bu işin arxasında çox böyük əllər, güclü insanlar dayanıb. Ona görə bu qədər qəzanın içində ”Bolt” və ”Uber”ə ”gözünün üstə qaşın var” deyən yoxdur. Ona görə də bu özbaşınalıq davam edir. Düşünürəm ki, ciddi şəkildə bu məsələnin üstünə düşmək lazımdır. Bu şirkətlər Prezident İlham Əliyevin imzaladığı ”Bakı şəhərində taksi fəaliyyətinin təkmilləşdirilməsi haqqında” fərmandan üstün ola bilməz. Bu fərmanda hər şey açıq-aydın yazılıb. Ardınca baş nazir sərəncam imzalayıb.

Üstündən 6 aya yaxın vaxt keçsə də, hələ də ortada bir iş yoxdur. Nədənsə bu sahədə çox ləng proses gedir. Aidiyyəti qurumlar sanki yerlərində sayırlar. Bir az ciddi işləsələr, nəticə yaxşı olar”.

# "Diaspora quruculuğunda Mehriban xanım Əliyevanın böyük əməyi var"

## Elnur Eltürk: "Heydər Əliyev Fondu Azərbaycanın təbliğatı ilə bağlı effektiv iş ortaya qoyub"

**5 iyul 2022-ci il tarixində Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 20 illiyi tamam olur. Artıq 20 ildir ki, diasporumuzu təşkilatlandıran, ona dəstək göstərən dövlət qurumu fəaliyyət göstərir. Xüsusilə də son illər ərzində Diasporla İş üzrə Dövlət Komitəsi güclənən Azərbaycan dövlətçiliyinin əsas sütunlarından birinə çevrilərək, ölkəmizdən kənarda yaşayan həmvətənlərimizin birliyi, həmrəyliyi uğrunda böyük işlərə imza atıb. Bu gün Azərbaycan diasporunun səsi dünyanın demək olar ki, bütün ölkələrindən eşidilir. Bu da diaspor işinin düzgün şəkildə yerinə yetirilməsindən, azərbaycanlıların birlik və həmrəyliyindən irəli gəlir.**

Diasporun inkişafında böyük addımlar atanlardan biri də Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevadır. Mehriban xanımın təşəbbüsü və dəstəyi ilə xarici ölkələrdə "Qarabağ" adlı həftəsonu Azərbaycan məktəbləri fəaliyyətlərini genişləndirir. Hazırda Ottava, Nant, Bern, Varşava, Stokholm, London kimi şəhərlərdə fəaliyyət göstərən "Qarabağ məktəbi"ndə yüzlərlə azərbaycanlı uşaq təhsil alır. Bu dəstək sayəsində 6-10 yaşlı azərbaycanlı uşaqlar üçün müasir üslubda hazırlanmış "Azərbaycan dili" dərsliyi çap edilərək xaricdəki soydaşlarımıza göndərilib.

**Görülən işləri yüksək qiymətləndirən diaspor üzrə araşdırmaçı-ekspert Elnur**



**Eltürk "Şərq"ə bildirib ki, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə görülən işlər xaricdə yaşayan azərbaycanlı uşaqların öz dilində təhsil alması, milli ruhda böyümələrinə böyük təsir göstərir:** "Heydər Əliyev Fondu yaranan gündən bu günə qədər Azərbaycanın təbliğatı ilə bağlı uğurlu və effektiv iş ortaya qoyub. Fond dünyada Azərbaycanın dostlarının sayının çoxalması ilə bağlı beynəlxalq konfranslar, tədbirlər və layihələr həyata keçirib. Fond fəaliyyətində xaricdə Azərbaycan diaspor təşkilatlarının birləşməsinə və milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına xüsusi önəm verir. Bu iş birbaşa olaraq Heydər Əliyev Fondunun rəhbəri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilir. Bu gün "Qarabağ məktəbi"ndə yüzlərlə azərbaycanlı uşağın təhsil alması, onların vətənlə bağlılığını gücləndirəcək. Həmçinin, milli ruhda böyümələrinə böyük təsir göstərəcək. Sevindirici hal odur ki, 6-10 yaşlı azərbaycanlı uşaqlar üçün müasir üslubda hazırlanmış "Azərbaycan dili" dərsliyi çap edilərək xaricdəki soydaşlarımıza göndərilib və bu, onların şüurlarında Qarabağa, vətənə olan sevgilərini sönməyə qoymayacaq. Çünki hər şey təhsildən başlayır. Təhsil alan uşaqlar gələcəkdə yaşadıqları ölkənin qanun və qaydalarına riayət etməklə yanaşı, eyni zamanda da Vətənə möhkəm, sarsılmaz tellərlə bağlı olacaqlar. Bu istiqamətdə həyata keçirilən və ortaya qoyulan işin əhəmiyyəti böyükdür. İşlər sistemli şəkildə davam edərsə, bu işin nəticəsi arzuladığımız kimi olacaq.

Fakt odur ki, xaricdə fəaliyyət göstərən erməni diasporu Ermənistanda anadan olmayan uşaqlarını milli ruhda böyüdürlər. Onları yalançı və qondarma tarixlə tərbiyələndiririrlər. Sabah onlar yüksək vəzifələrdə çalışarkən Ermənistanın maraqlarına xidmət edirlər. Dəfələrlə beynəlxalq tədbirlərdə bunun şahidi olmuşuq. Biz də öz tariximizi gənclərimizə öyrətməliyik. Bunun üçün bizim yetərincə potensialımız var".

**Nihat Müzəffər**

# AMİP 30 yaşında...





**Etibar Məmmədov:** "Müstəqilliyimizin əldə olunmasında bizim təşkilat fəal iştirak edib və böyük zəhməti olub"

**Arzuxan Əlizadə:** "AMİP 30 il ərzində Azərbaycanda baş vermiş bütün hadisələrin, siyasi-ictimai proseslərin episentrində olub"

**İyulun 4-də müstəqil Azərbaycanın ilk siyasi partiyası olan Milli İstiqlal Partiyasının yaradılmasının 30 illiyi tamam oldu. Partiyanın otuz illik yubileyi münasibətilə keçirilən tədbirdə iqtidar və müxalifət partiyalarının nümayəndələri, partiya funksionerləri, o cümlədən media mənsubları da iştirak etdilər.**

Azərbaycan Milli İstiqlal Partiyası 30 ildə çox keçməkeşli həyat yolu keçib. Partiya təkcə mövcud siyasi mühitlə mübarizə aparmayıb, həm də siyasi təşkilatlanmanın şaxələnməsində mühüm rol oynayıb. AMİP Azərbaycanın ictimai-siyasi həyatında öz nüfuzu, aydın ideoloji xətti olan, milli dəyərlərin mühafizəçisi kimi tanınıb. 3-4 iyul 1992-ci il tarixlərində Etibar Məmmədovun rəhbərliyində təsis edilmiş partiya 17 iyul 1992-ci il tarixində Ədliyyə Nazirliyində rəsmi qeydiyyatdan keçib. Azərbaycan Milli İstiqlal Partiyası Azərbaycan Xalq Cəbhəsinin sabiq üzvləri tərəfindən təsis olunub. Partiya indiyədək 11 qurultay keçirib və 5 dəfə yeni sədr seçilib. Partiya sıralarında olmuş bir çox şəxs sonralar istefa veriblər. Onlardan daha sonra yüksək vəzifələrə təyinat alanlar da olub. Məsələn, bu şəxslərə sabiq baş nazir Novruz Məmmədov, baş nazirin sabiq müavini Elçin Əfəndiyev, baş nazirin müavini Əli Əhmədov, səfir, sabiq xarici işlər naziri Vilayət Quliyev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin sədri Fərhad Məmmədov, AMEA İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru Rasim Əliquliyevi və başqalarını nümunə göstərmək olar. Azərbaycan Milli İstiqlal Partiyasından ayrılmış bəzi şəxslər daha sonra öz partiyalarını təsis ediblər. Abutalıb Səmədov Azərbaycan Naminə Alyans Partiyasını, Elşad Musayev Böyük Azərbaycan Partiyasını, Əli Əliyev Vətəndaş və İnkişaf Partiyasını, İlqar Məmmədov isə Respublikaçı Alternativ Hərəkatını təsis ediblər. Əslində AMİP-in təşəkkül prosesi 1991-ci ildən başlayıb. 1991-ci il tarixində Azərbaycan Xalq Cəbhəsi daxilində fikir ayrılıqları yaşandığı üçün bir qrup şəxs Etibar Məmmədov ətrafında birləşib. Etibar Məmmədov və onu dəstəkləyən bir qrup şəxs yeni siyasi partiya - Azərbaycan Milli İstiqlal Partiyasının Təşkilat Komitəsini yaradıblar. Bu barədə 15 oktyabr 1991-ci il tarixində Azərbaycan Televiziyası ekranlarından Təşkilat Komitəsinin Bəyənnaməsi elan olunub. Növbəti gün isə Etibar Məmmədovun çap etdirdiyi "Millət" qəzetinin sınaq nəşrində məlumat dərc edilib. Təşkilat Komitəsi 3 iyul 1992-ci il tarixinə qurultay çağırıb. Həmin tarixdə Bakıda, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binasında partiyanın Təsis Qurultayı keçirilib. Qurultayın ilk günündə sabiq dövlət katibi və baş nazir Pənah Hüseyn tərəfindən eks prezident Əbülfəz Elçibəyin təbrik məktubu oxunub. Qurultayda tək namizəd olan Etibar Məmmədov lehinə 419 səs, əleyhinə isə 3 səs verilib. Beləliklə, 71 illik təkpartiyalı sistem tarixə qovuşub və müstəqil Azərbaycan Respublikasının ilk rəsmi siyasi partiyası fəaliyyətə başlayıb. 2001-ci ildən bu yana qərargahsız fəaliyyət göstərən partiyaya 2020-ci ilin sonlarında qərargah ayrılıb. Azərbaycan Milli İstiqlal Partiyası 1995-ci ildən Beynəlxalq Demokratlar İttifaqı ilə əməkdaşlıq etməkdədir. Partiya 1999-cu ilin may ayından Beynəlxalq Demokratlar İttifaqının tam hüquqlu üzvü olub. Partiya, həmçinin, Avropa Parlamentində mövcud olan Avropa Xalq Partiyası ilə əməkdaşlıq etməkdədir. Azərbaycan Milli İstiqlal Partiyasının Məramnaməsinə əsasən partiya istiqlalçılıq, azərbaycançılıq, milliyətçilik, milli dövlətçilik, hürriyətçilik və öncüllük prinsiplərinə sahibdir.

**Azərbaycan Milli İstiqlal Partiyasının qurucusu və ilk sədri, keçmiş millət vəkili Etibar Məmmədov deyib ki, AMİP-in yaranması Azərbaycan tarixində mühüm hadisədir.** Partiyanın 30 illik fəaliyyətindən danışan Etibar Məmmədov vurğulayıb ki, Azərbaycanda təşkilatlanmış və ilk qeydiyyatdan keçmiş siyasi partiya Azərbaycan Milli İstiqlal Partiyası olub: "AMİP hakimiyyətə alternativ olaraq yaradılmış və bunu elan etmiş ilk siyasi təşkilatdır. Partiyanın yaranması ilə ölkəmizdə çoxpartiyalı sistemin əsası qoyuldu. O vaxta qədər Azərbaycanda siyasiləşmə, partiyalaşma ənənəsi olmamışdı. Bunun əsasını AMİP qoydu və sonrakı partiyalaşma prosesinə təkan verdi. Partiya bir çox ilklərə imza atıb. Dövlətçilik, partiyalaşma və iqtisadi ənənələrin əsasını qoyub. Bununla da Azərbaycanın siyasi həyatının ayrılmaz və unudulmaz bir hissəsinə çevrilib. Mən bu partiyanın yaradılmasında iştirakıma görə qürur duyuram".

*E.Məmmədov AMİP-in siyasi təşkilat olaraq bir çox hədəflərinə çatdığını bəyan edib:* "Ümummilli hədəflərimizdən biri istiqlalımızın qazanılması, Azərbaycanın müstəqilliyinin əldə olunması idi. AMİP bu prosesdə çox fəal iştirak edib və böyük zəhmətləri olub. Azərbaycanın müstəqilliyi haqqında Konstitusiya aktının müəlliflərindən biri də AMİP idi. Partiyamızın qanunvericilik təşəbbüsü ilə irəli sürülən həmin layihə Milli Məclisdə qəbul olunub. 18 oktyabr Azərbaycan tarixinə Müstəqilliyimizin Bərpası Günü kimi daxil olub. Digər hədəflərimizdən biri milli ordunun yaradılması, ordu quruculuğunda iştirak idi. AMİP üzvləri milli ordunun təşəkkül prosesində də yaxından iştirak ediblər. Biz buna görə də fəxr edirik".

**Hazırda partiyaya sədrlik edən Arzuxan Əlizadə "Şərq"ə açıqlamasında vurğulayıb ki, AMİP müstəqil Azərbaycanın ilk rəsmi dövlət qeydiyyatından keçmiş siyasi təşkilatıdır.** A.Əlizadə vurğulayıb ki, 1991-ci il oktyabrın 15-də partiyanın yaranması ilə bağlı Təşkilat Komitəsinin bəyanatı olub: "Həmin bəyanat Azərbaycan televiziyasında səsləndirilib. Oktyabrın 16-da isə "Millət" qəzetində partiyanın yaradılması ilə bağlı bəyanat dərc olunub: "Bəyanat dərc olunandan iki gün sonra, yəni 1991-ci il 18 oktyabr tarixində Azərbaycanın müstəqillik aktı qəbul olundu. Müstəqillik aktının müəllifləri arasında AMİP-in qurucularından Etibar Məmmədov və tanınmış vəkil Fuad Ağayev də olublar. Daha sonra partiyanın təşkilatlanma dövrü başlayıb. 1992-ci ilin iyulun 3-4 tarixlərində partiyanın ilk təsis qurultayı keçirilib. Ayın 17-də isə rəsmi dövlət qeydiyyatına alınmış ilk siyasi təşkilat olaraq fəaliyyətə başlayıb. AMİP elə ilk günlərdən qarşısına qoyduğu məqsədlər fonunda dövlət və milli maraqları hər şeydən üstün tutacağını bəyan edib. Dövlət və milli maraqlar olan yerdə digər partiya və siyasi maraqların arxa plana keçəcəyini vurğulayıb. 30 il ərzində də bu ənənəsinə sadiq qalıb və bundan sonra eyni yol üzərində gedəcək. Dövlət müstəqilliyinin əldə olunmasında partiyanın özəyini təşkil edən insanlar fədakarlıq göstəriblər. Azərbaycanın dövlət kimi Türkiyə və Pakistan tərəfindən rəsmən tanınmasında partiyanın qurucusu, hazırda fəxri liderimiz olan Etibar Məmmədov hökumət komissiyasının rəhbəri kimi çıxış edib. Son dönəmlərdə Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında AMİP özünün beynəlxalq əlaqələrindən maksimum istifadə edib. Bu istiqamətdə təbliğatlar aparıb. Ölkənin ən çox beynəlxalq əlaqələrə malik siyasi təşkilatı olaraq 30 il ərzində Azərbaycan həqiqətlərini dünyaya çatdırmağa çalışmışıq və buna nail olmuşuq. Eyni zamanda ərazilərimiz işğal altında olarkən torpaqlarımızın azadlığı üçün ciddi fəaliyyət göstərmişik. Bir sıra mühüm sənədlərin qəbul olunmasına nail olmuşuq. Həmçinin, informasiya müharibəsində fəal iştirak etmişik".

*A.Əlizadə qeyd edib ki, AMİP 30 il ərzində Azərbaycanda baş vermiş bütün hadisələrin, siyasi-ictimai proseslərin episentrində olub:* "Prezident, parlament və bələdiyyə seçkilərinə öz namizədlərimizlə qatılmışıq. Uğurlarımızla yanaşı, uğursuz hesab etdiyimiz bir sıra fəaliyyətimiz də olub. Ancaq hər zaman bütün proseslərdə aktiv iştirak etməklə yanaşı, dövlət və milli maraqları hər şeydən öndə tutmuşuq. Ölkəmizin əksər regionlarında, rayonlarımızda yerli təşkilatlarımız var. Partiyamızın çoxminlik üzv "ordusu" var. Hamımız birlikdə Azərbaycan dövlətinin gələcəkdə daha güclü, qüdrətli olmasına, regionda siyasi-iqtisadi və hərbi cəhətdən güclənməsinə əlimizdən gələn töhfəni verməyə hazırıq".

**İsmayıl Qocayev**



# "Vəkillər həm də gözəl natiq olmalıdır"

## Adəm Məmmədovun Azərbaycan Yazıçılar Birliyinə üzv olması 5 ay çəkib

**Peşəkar vəkil Adəm Məmmədov Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilib. Vəkilə üzvlük vəsiqəsini Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar təqdim edib.**

Qeyd edilir ki, Adəm Məmmədov Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, ədliyyə kapitanıdır. Tanınmış vəkil bakalavr dərəcəsi üzrə Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq fakültəsində və magistr dərəcəsi üzrə Rusiya Xalqlar Dostluğu Universitetində təhsil alıb. Adəm Məmmədov, həmçinin telejurnalist kimi də tanınır. Uzun illər "Lider" televiziyasında "Hüquq və ədalət", "İnsan və qanun" verilişlərinin aparıcısı olub. O, oxucular tərəfindən böyük maraqla qarşılanan "Qətlin sonu" detektiv-triller romanın müəllifidir. Yazıçının hazırda "Oğurlanmış adam" romanı çapa hazırlanır.

**"Bədii əsər yazmaq mənim üçün o qədər də çətin deyil. Yazıçıların əsərləri çox zaman təxəyyülün məhsulu olursa, vəkil kimi mənim əsərlərim real həyat hadisələrinə əsaslanır"**

AYB-yə üzv seçilməsiylə bağlı "Şərq"ə danışan vəkil qeyd etdi ki, belə bir təşkilata üzv olmaq məsuliyyət hissini artırır:

- Bir təşkilata, birliyə üzv olduqda insanın məsuliyyəti daha da artır. Özünü təsdiqləməyə, doğrultmağa çalışırsan. Hesab edirəm ki, AYB-yə üzv olmaq yaradıcılıq sahəsində mənə stimul verəcək.

*A.Məmmədovun AYB-yə üzvlük üçün ümumi əsaslarla müraciət etdiyini, üzvlüklə bağlı zəmanət məktubunun tanınmış yazarlar Gülhüseyn Kazımov, Kənan Hacı və Qurban Bayramov tərəfindən imzalandığını bildirdi:*

- Kitablarımı oxumuşdular, zəmanət məktubunda əsərlərim haqqında rəy yazılmışdı, məqalələrim təqdim edilmişdi. Komissiya da araşdırıb və mənim AYB-yə üzv olmağım təsdiqlənib. 31 yanvar tarixində müraciət edilmişdi, proses təxminən 5 ay çəkdi.

**A.Məmmədov qeyd etdi ki, vəkillər də yaradıcı şəxslərdir:**

- Vəkil müdafiə çıxışını inandırıcı tərtib etməlidir, məhkəməni inandırmağı bacarmalıdır. Roma imperiyası dövründən vəkillər həm də gözəl natiqlər hesab edilirdi. Çünki nitqləri bəlağətli, inandırıcı olurdu. Vəkil müdafiə çıxışını sözlər, ifadələr üzərində qurur. Bu mənada vəkillər də söz adamlarıdır. Ona görə də bədii əsər yazmaq mənim üçün o qədər də çətin deyil. Yazıçıların əsərləri çox zaman təxəyyülün məhsulu olursa, vəkil kimi mənim əsərlərim real həyat hadisələrinə əsaslanır.

**Məlahət Rzayeva**

# Qarabağda hər an antiterror əməliyyatı gerçəkləşə bilər

## Ermənistan müxalifəti ölkəsini yenidən hərbi toqquşmalara sürükləyir



**Bir müddətdir ki, Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədində vəziyyəti gərginləşdirir.**

Ermənistan silahlı qüvvələrinin bölmələri iyulun 4-ü gecə saatlarında dövlət sərhədinin Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Dəmirçidam, iyulun 5-i isə Yuxarı Ayrım yaşayış məntəqəsi istiqamətində yerləşən Ordumuzun mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.

Azərbaycan Ordusunun bölmələri adekvat cavab tədbirləri görüb. Dövlət sərhədində vəziyyətin gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

**BDU-nun professoru, politoloq Əlimusa İbrahimov "Şərq"ə bildirib ki, Azərbaycanla Ermənistan arasında yeni döyüşün, qarşıdurmanın yaranması qaçılmazdır:**

"Qarabağdakı ermənilər mütəmadi olaraq Azərbaycan Ordusunun mövqelərini atəşə tuturlar. Onların məqsədi ölkəmizi yenidən münaqişəyə cəlb etmək və müxalifəti ayağa qaldırmaqdan ibarətdir. Uzun müddət idi ki, İrəvanda müxalifətin mitinqi baş tuturdu. Müxalif qüvvələr Ermənistanın Baş naziri Nikol Paşinyanın apardığı siyasətə qarşı çıxırdı. Lakin istəklərinə çatmadılar. Azərbaycan mövqelərinin atəşə tutulmasının səbəbinin Ermənistanda baş verən proseslərdən qaynaqlanması mümkündür. Xankəndidəki silahlı bölmələr müxalifətlə əlaqəlidir, onların dedikləri ilə oturub-dururlar. İrəvanda hadisələri canlandırmaq üçün sərhəddə münaqişə yaratmaq istəyirlər".

**Politoloqun qənaətincə, rəsmi İrəvan vədinə sadiq qalmır:** "Ermənistanla Azərbaycan arasında danışıqlar prosesi gedir. Amma Ermənistanın günahı ucbatından konkret nəticə əldə olunmur. Sərhədlərin müəyyənləşməsi, Zəngəzur dəhlizinin açılması, kommunikasiyaların işə salınması haqda sözləri yerinə yetirmir.

Aprelin 16-da Brüssel görüşündə də nəticə əldə olunmamışdı. Avropa İttifaqı Şurası (Aİ), eləcə də digər beynəlxalq təşkilatlar Ermənistana təzyiq göstərir. Bəlkə də danışıqlar prosesinin ləngiməsi üçün sərhəddəki insidentləri N.Paşinyanın əlaltıları gerçəkləşdirir. Danışıqlar yekunlaşdığı təqdirdə müxalifət tərəfi bunu Ermənistanın Azərbaycana güzəşti kimi qiymətləndirəcək. Müzakirələri dalana dirəməkdən ötrü belə insidentlər yaşanır.

Vəziyyəti gərginləşdirən bizim torpaqlarımızda qalan erməni tör-töküntüləridir.

"Qarabağ klanı" buna nəzarət edir. Antiterror əməliyyatı Azərbaycanın gündəliyindədir. Ölkəmiz çoxşaxəli siyasət aparır. Güman ki, iyulun 4-də Aİ Şurasının Prezidenti Şarl Mişelin Azərbaycan Prezidentinə zəngində məsələ ətrafında müzakirə olub. Azərbaycan tərəfi münaqişənin başvermə ehtimalını anlayır və hər duruma hazırdır. Sadəcə indi siyasi dairələrdə hadisənin baş verməsinin əsaslandırılmasıyla məşğuldur. Hər an antiterror əməliyyatı keçirilə bilər".

**Aygün Tahir**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi;

# Dünya Azərbaycanı artıq ədaləti bərpa etmiş ölkə kimi tanıyır

## Bundan sonra da diasporamız uğurlu fəaliyyətini davam etdirərək haqq səsini yüksəldəcək

**Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə gəlişi digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Ulu öndər, bütün xarici səfərlərində Azərbaycan diasporunun nümayəndələri ilə görüşür, onların problem və qayğıları ilə maraqlanır, həmvətənlərimizi yenicə müstəqillik qazanmış respublikamızın tarixi mənafelərinin reallaşdırılması prosesində fəal iştirak etməyə çağırırdı.**

Zaman keçdikcə diaspor quruculuğu Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasətin məqsədi dünya azərbaycanlılarının tarixi Vətənlə əlaqələrini inkişaf etdirmək, soydaşlarımızın milli özünəməxsusluğunu qoruyub saxlamaq idi. Diaspor fəaliyyətinin inkişafı istiqamətində atılan ən mühüm addımlardan biri də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması oldu. Qloballaşan dünyamızın reallıqları diaspor quruculuğu sahəsində Azərbaycanın qarşısında yeni vəzifələr qoymuşdu. Xalqlar arasında gedən sürətli inteqrasiya prosesləri, diaspor və lobbi təşkilatlarının beynəlxalq siyasətdə artan rolu bu sahədə daha genişmiqyaslı fəaliyyət göstərilməsi tarixi zərurətə çevrilmişdi. Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması məhz bu zərurətdən irəli gəlirdi. Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması digər xalqların diaspor qurumları və müxtəlif ölkələrin bilavasitə bu sahəyə məsul olan dövlət orqanları ilə birbaşa əməkdaşlığın qurulması imkanlarını genişləndirir. Bu mənada Prezidentin "Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Sərəncamı Azərbaycan Respublikasının diaspor quruculuğu işinə verdiyi önəmin daha bir parlaq təzahürü kimi qiymətləndirilməlidir.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov deyib ki, Komitə 2002-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən təsis olunub. Sədrin sözlərinə görə, bu təsisat ilə ümummilli liderimizin müəyyənləşdirdiyi siyasi kurs istiqamətində ilk genişmiqyaslı işlərin təməli qoyulub. Dünyada artıq 70-dən çox ölkədə müxtəlif növ istiqamətdə fəaliyyət göstərən diaspor qurumunun mövcud olduğunu bildirən Komitə sədri bunların ümumilikdə uzaqgörən siyasətin nəticəsi olaraq formalaşdığını, yumşaq güc rolunu oynadığını xatırladıb: "Bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin sayəsində torpaqlarımıza qayıtmışıq, amma 30 il bundan öncə bu məsələlər çox aktual idi və dünya ictimaiyyəti yeni texnologiyaların nəticəsi olan sosial şəbəkələrdə qlobal informasiya məkanında birləşməmişdi. Bizim üçünsə yaşadığımız ölkələrdə Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırması çox vacib bir amil idi. Belə vaxtlarda Azərbaycan diasporunun təşkilatlanması, vahid məqsəd ətrafında birləşməsi olduqca vacib idi".

Artıq dünyanın 51 ölkəsində birbaşa diasporun fəaliyyət göstərdiyini, 80-ə yaxın ölkədə Azərbaycan diaspor nümayəndəsinin olduğunu qeyd edən Komitə sədri Şuşada keçirilən Zəfər Qurultayından söhbət açıb. Prezident İlham Əliyevin ölkəmizin diasporunun əməyinə verdiyi qiyməti gələcək fəaliyyət istiqaməti üçün böyük stimul olduğunu bildirib: "Bu günə qədər 18 Azərbaycan evi açılıb və bu proses bütün dünyada davam edir. Eyni zamanda, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə şənbə-bazar məktəbləri fəaliyyət göstərir. Biz inanırıq ki, ilin axırına qədər bu məktəblərin sayı iki dəfə artacaq". Azərbaycan dövlətinin imkanlarının genişliyindən və informasiya mübarizəsində diasporla müntəzəm, intensiv çalışan ekspertlərin çox fəal olduğundan danışan F.Muradov hər bir diaspor təşkilatının ölkəmizin apardığı mübarizədə rolunu qeyd edib: "Son dörd ildə 30-dan çox missiyanın bizim diaspor nümayəndələri tərəfindən işğaldan azad olunmuş torpaqlara səfəri təşkil olunub, bu səfərlərin çərçivəsində həm ekspertlər, həm də tarixçilər, jurnalistlər reallığı görərək dünyaya çatdırıblar. Eyni zamanda, diasporun qazandığı nailiyyət Müzəffər Ali Baş Komandanımızın, Azərbaycan xalqının Qələbəsinin nəticəsidir". Qəhrəman şəhidlərimizin, əsgərlərimizin Azərbaycanın ərazi bütövlüyünü qoruyub saxlamasında, bərpasında çox mühüm işlər gördüyünü, hər ay diaspor nümayəndələrimizin xarici ölkələrdə keçirdiyi tədbirlərə şəhid ailələri və qazilərin dəvət olunduğunu vurğulayan Fuad Muradov qarşıda xeyli işlərin olduğunu bildirib: "Dövlətimizin başçısı tərəfindən Şuşa şəhərindəki Zəfər Qurultayında bir neçə istiqamətin vurğulanması bizim üçün yol xəritəsidir". Gənclər üçün yay məktəblərinin təşkilinin zərurətə çevrildiyini deyən Komitə sədri belə məktəblərdən birinin bu il avqustun 2-8-də Şuşa şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə baş tutacağını qeyd edib.



**Millət vəkili Azər Badamov "Şərq"ə açıqlamasında bildirib ki, dünyanın hər bir guşəsində azərbaycanlılar yaşayır. Deputatın sözlərinə görə, ikinci dəfə qazanılmış müstəqilliyimizin ilk illərində dövlət rəhbərliyində olanlar dünyada yaşayan həmyerlilərimizi unutmuşdu**: "Məhz xaricdə yaşayan həmyerlilərimizə laqeyd münasibət göstərməsindən sui-istifadə edən ermənilər uzun illər formalaşdırılmış diasporanın gücü uilə beynəlxalq arenada antiazərbaycan fəaliyyəti aparırdı. Ermənilər dünya ictimaiyyətini yalan məlumatlara inandırmışdı. Amma 2003-ci ildə ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının rəhbərliyinə qayıtması ölkə daxilində dövlət sütunlarını möhkəmlətdiyi kimi xaricdə yaşayan həmvətənlərimizlə də koordinasiya olunmuş fəaliyyətin təşkilinə başlanıldı. Ulu öndərin bütün xarici səfərlərində o ölkələrdə yaşayan həmyerlilərimizlə görüşür və onlara öz tövsiyələrini bildirirdi. Nəhayət, 2001-ci ildə Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayında xaricdəki həmvətənlərimizlə sistemli iş aparılmasını təşkil etmək, soydaşlarımız arasında milli birliyin möhkəmlənməsini təmin etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası irəli sürüldü. 5 iyul 2002-ci ildə Prezident Heydər Əliyevin fərmanı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi yaradıldı. Məhz belə dövlət qurumu yaradıldıqdan sonra dünyada yaşayan azərbaycanlılarla koordinasiya olunmuş iş aparılmağa başlandı. Ulu öndərin əsasını qoyduğu diaspor fəaliyyəti Prezident İlham Əliyev tərəfindən daha da genişləndirildi".

**Parlament üzvü vurğulayıb ki, bu illər ərzində keçirilmiş Dünya azərbaycanlılarının qurultaylarında soydaşlarımız qarşısında müəyyən vəzifələr qoyuldu, hədəflər müəyyənləşdirildi:** "Müxtəlif ölkələrdə diaspor təşkilatları yaradıldı. Həmin təşkilatlara həmyerlilərimiz dəvət olunaraq təşkilatlanmış iş aparılmağa başlandı. Məhz Leyla xanım Əliyevanın rəhbərliyi altında diaspor təşkilatlarımız müxtəlif ölkələrdə çoxlu tədbirlər keçirdi. Dünyaya Azərbaycanın həqiqətləri tanıdıldı. Ermənilərin lobbi fəaliyyəti nokaut vəziyyətinə salındı və dünya erməninin iç üzünü tanımağa başladı. Təbii ki, bizə erməninin işğalçı və vandalist üç üzünü tanıtmaq vacib idi. 44 günlük Vətən müharibəsi zamanı da diasporalarımız tərəfindən bir çox ölkələrdə tədbirlər təşkil edildi. Azərbaycan şanlı qələbəsi ilə uzun illər pozulmuş ədalətin bərpasına əsaslandığını dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. Bu gün Diasporla İş üzrə Dövlət Komitəsinin yaranmasının 20 ili qeyd olunur. Bu 20 ildə dünyada yaşayan azərbaycanlıların arasında milli birlik və həmrəylik yaradılaraq beynəlxalq informasiya müharibəsində ermənilərin yalan informasiya maşınının sındırıldığını deyə bilərik. Artıq Azərbaycanı dünya qalib və ədaləti bərpa etmiş ölkə kimi tanıyır. Xaricdə yaşayan hər bir azərbaycanlı qalib ölkənin soydaşları olaraq başını dik tutaraq qürurla gəzir, azərbaycanlı olmağıyla fəxr edir. Təbii ki, Böyük Qələbəmizdən sonra da Diasporla İş üzrə Dövlət Komitəsinin qarşısında yeni vəzifələr qoyulub. İnanıram ki, bundan sonra da müstəqil Azərbaycan dövlətinin milli maraqlarına uyğun olaraq azərbaycanlıların lobbiçilik fəaliyyəti təşkilatlanmış şəkildə daha geniş davam etdiriləcək".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Qəpiklə mənzil başına...

## Avtobuslardan istifadə edənlərin sayı artıb

**Avtomobil nəqliyyatı ilə daşımaların həcmi artıb. Dövlət Statistika Komitəsinin məlumatında qeyd olunur ki, 2022-ci ilin yanvar-may aylarında Azərbaycanda nəqliyyatçılar 624,4 milyon sərnişinə xidmət göstərib. Sərnişinlərin 86,5 faizi avtomobil nəqliyyatı, 13,1 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınıb.**

Nəqliyyat sektorunda daşımaların həcmində xüsusi çəkisi ən böyük olan avtomobil nəqliyyatı ilə 540,4 milyon sərnişin daşınıb və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 11,2 faiz və 21,3 faiz artım qeydə alınıb. Sərnişinlərin 94,5 faizi avtobus, 5,5 faizi isə minik taksilərinin xidmətlərindən istifadə edib. Sərnişin dövriyyəsi isə 22,4 faiz artıb. Bu göstəricilər ictimai nəqliyyatdan istifadənin artdığını da təsdiqləyir. Əhalinin ictimai nəqliyyata üstünlük verməsi təqdirolunası haldır. İllərdir, mütəxəssislər paytaxt əhalisinə ictimai nəqliyyatdan daha çox istifadə etməyi məsləhət görür. Müvafiq orqanlar da, xüsusilə beynəlxalq tədbirlər, yarışlar, həftə sonları, pik saatlarda ictimai nəqliyyata üstünlük verilməsini tövsiyə edirlər. Deyəsən, əhali "haqq yoluna" gəlir, yavaş-yavaş. İctimai nəqliyyatdan daha çox istifadə edilməsinə bu sahədə son zamanlar həyata keçirilən islahatlar, rahat sərnişin avtobuslarının xəttə daha çox buraxılması, bir sıra marşrutlar arasında intervalların azaldılması da səbəb ola bilərmi?

**Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov "Şərq"ə açıqlamasında sərnişindaşımada avtomobil nəqliyyatının çəkisinin artmasının bir neçə səbəbi olduğunu dedi:**

- Əvvəla, bunu vurğulamalıyam ki, cənab Prezident İlham Əlieyin 2022-ci il 07 fevral tarixli "Bakı şəhərinin inzibati ərazisində nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə Bakı Nəqliyyat Agentliyi publik hüquqi şəxs statusu ilə Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyinə verildi. Fərman, Bakı şəhərinin inzibati ərazisində yol hərəkətinin təşkili, ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, habelə bu sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin davam etdirilməsi məqsədi daşıyır. Hiss olunur ki, sərnişindaşımada müsbət irəliləyişlər var. Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlər də bunu deməyə əsas verir. Ölkədə həqiqətən də sırf avtobusla sərnişin daşımalarının sayı artıb. Təkcə mart ayında, Novruz bayramı günlərində avtobuslarla bölgələrə 50 min sərnişin daşınıb. Əlbəttə ki, burada dəmir yollarının bağlı olması amili də var. Dəmir yolları gediş-gəliş mümkün olmadığı üçün əhali məhz avtobuslarla bölgələrə gedib-gəlir. Amma ictimai nəqliyyatdakı inkişafı, həmçinin taksi xidmətinin də normal fəaliyyətini vurğulamalıyıq. Taksi operator şirkətlərinin sayı çoxdur. Taksilərin də sayı çoxalıb. Bu sahədə şəffaf rəqabətlilik var. Sərnişinlərin seçim imkanı var. Hansı taksi xidməti qiymət baxımından sərf edirsə, vətəndaş onu seçir. Bu amillər avtomobil nəqliyyatı ilə daşınmaların həcmini artırır. Bakıda ictimai nəqliyyatın bir üstünlüyü də metronun olmasıdır. Avtobus da gecikir, taksi qiymətləri qaldırır, metro isə ən rahat nəqliyyat vəsitəsi olaraq qalır. Vətəndaşlar metrodan istifadəyə daha çox önəm verir.

***"Son vaxtlar vətəndaşlar daha rasional düşünməyə başlayıb"***

**E.Cəfərov qeyd etdi ki, əhalinin ictimai nəqliyyata daha çox önəm verməsinin bir səbəbi də tıxaclardır:**

- Tıxac meqa-şəhərlərə xasdır, bunu heç kim inkar edə bilməz. Xüsusilə pik saatlarda avtomobil nəqliyyatından, hətta taksilərdən istifadə müşkülə çevrilir. Birincisi, pik saatlarda taksi xidməti də bahalaşır. Yollarda, tıxacda vaxt itkisi, daha çox yanacaq sərfi əsas gətirilərək xidmət haqqı da yüksəlir. Digər tərəfdən vətəndaş tamamilə doğru olaraq hesab edir ki, avtobusla getsə də tıxaca düşür, taksi ilə getsə də. Belədə taksiyə 3-4 manat ödəməkdənsə, 30, 35-40 (şəhərkənarı avtobuslar) qəpik verib avtobusla gedər. Hətta tıxaclar metrostansiyalarından, məsələn, Xırdalan, Masazır, Günəşli istiqamətinə adambaşı 1 manata aparan taksilərin də bazarını öldürür. Bir halda ki taksi avtobusla eyni yolu, eyni vaxta gedir, avtobusa üstünlük vermək daha ağlabatandır. Ümumiyyətlə, son zamanlar vətəndaşlar daha rasional düşünməyə başlayıb. Hesab edirəm ki, şəxsi avtomobillərdən yalnız zəruri ehtiyac olduqda istifadə edilməsinə doğru gedirik. Nəhayət, əhali anlamalıdır ki, ictimai nəqliyyat daha sərfəli, daha güvənlidir.

E.Cəfərov payızda ictimai nəqliyyat sektorunda başqa müsbət dəyişikliklərin olacağını da qeyd etdi.

**Məlahət Rzayeva**

# Gözəl təşəbbüsdür

## Ermənilərin vandalizm hərəkətlərini sürətli dünyaya çatdıracağıq

**Ermənistanın işğalından azad olunan Azərbaycan ərazilərində yerləşən tarix-mədəniyyət abidələrinin real vəziyyətini dünyaya çatdırmaq üçün yeni portal yaradılıb. heritage.gov.az saytını Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti hazırlayıb.**



***Azər Həsrət: "Ölkənin ən çox oxunan, populyar internet resursları yeni yaradılan saytın tanınmasına qarşılıqsız dəstək verməlidir"***

Saytın yaradılmasında məqsəd işğal dövründə mədəni irs nümunələrimizə qarşı Ermənistan tərəfindən həyata keçirilən vandalizm, özününkiləşdirmə və dağıntı faktlarını açıq internet resurslarında yerləşdirməklə törədilən qanunsuz əməllər barədə geniş ictimaiyyəti məlumatlandırmaqdan ibarətdir. Saytın iyulun 7-də təqdimat mərasimi keçiriləcək.

**Media eksperti Azər Həsrət "Şərq"ə açıqlamasında Ermənistanın işğalından azad olunan Azərbaycan ərazilərində yerləşən tarix-mədəniyyət abidələrinin real vəziyyətini dünyaya çatdırmaq üçün xüsusi portal yaradılmasını alqışalayiq hal kimi dəyərləndirib:** "Çox gözəl təşəbbüsdür. Belə bir portalın yaradılmasını yüksək dəyərləndirməmək mümkün deyil. Uzun illərdir internet üzərindən Azərbaycanla bağlı məzmunun genişləndirilməsi üçün intensiv çağırışlar edirəm.

Xaricdə ölkəmizlə bağlı hər hansı axtarışlar aparanda saxta faktlara rast gəlinir. Məhz bu səbəbdən də bir çox hallarda informasiya savaşında uduzuruq.

Bizim üçün hər nə qədər üzücü olsa da, reallıq budur ki, ermənilər bu sahədə bizdən daha çevikdirlər. Yalan-yanlış faktlar əsasında öz ölkələri ilə bağlı geniş bir məzmun yaradıb, internet üzərindən dünyaya tirajlayırlar. Xarici təşkilatlar, yaxud da adi vətəndaşlar hansısa bir faktla bağlı axtarış aparan zaman da onların qarşısına məhz həmin məzmun çıxır. Hansı ki, o məzmunda əks olunan faktlar da birmənalı şəkildə Azərbaycana qarşı hesablanmış yalan-yanlış məlumatlar toplusudur.

Bunun qarşısını almağın yeganə yolu isə alternativ məzmun yaradaraq Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdan ibarətdir. Bu mənada, bir az gecikmiş də olsaq, heritage.gov.az saytının yaradılması və orada işğal dövründə mədəni irs nümunələrimizə qarşı Ermənistan tərəfindən həyata keçirilən vandalizm, özününkiləşdirmə və dağıntı faktlarının yerləşdirilməsi alqışlanasıdır. Ümid edirəm özümüz deyib, özümüz eşitməmək üçün saytda dərc olunan məlumatlar bir neçə beynəlxalq dildə tirajlanacaq. Həmçinin də yazılan məqalə tarixi məlumatlar, təsdiqləyici faktlar, foto və videogörüntülərin olması da çox mühümdür. Bu cür gözəl təşəbbüs sadəcə başa çatdırılan bir layihə xarakterində olmamalıdır. Saytdakı məqalələr hər gün yenilənməli, yəni gündəlik məlumatların yer aldığı bir xəbər portalına çevirmək, operativ informasiyalarla zənginləşdirmək lazımdır ki, axtarışda olmayan adamlar belə sadəcə xəbər oxumaq üçün portala daxil olanda eyni zamanda tarixi-mədəni abidələrimizlə də tanış olsun. Düşünürəm ki, heritage.gov.az saytı geniş şəkildə ictimaiyyətə təqdim olunmalı və ölkənin ən çox oxunan, populyar internet resursları da bu portalın tanınmasına qarşılıqsız dəstək verməlidir".

**Şəymən**

# Sağlam və kəsimə yararlı olmalıdır

## Xəstə, arıq və qüsurlu heyvanlar qurbanlığa münasib sayılmır



**Azərbaycanda Qurban kəsimi 9 iyul tarixindən başlayaraq 3 gün davam edə bilər. Bu barədə Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının Qurban bayramı ilə bağlı fətvasında deyilir.**

Fətvada qeyd edilir ki, AMEA Şamaxı Astrofizika Rəsədxanasının hesablamalarına əsasən Azərbaycan üfüqündə Hilalın görünməsinə uyğun olaraq hicri təqvimiylə Zül-hiccə ayının 10-u - Qurban bayramı miladi təqvimlə 9 iyul tarixinə təsadüf edəcək. Şəriətə uyğun olaraq qurban kəsimi 9 iyul tarixindən başlayaraq 3 gün davam edə bilər. Fətvada həmçinin bildirilir ki, bütün səmavi dinlərin əziz tutduğu, Həzrət İbrahim əleyhissalamın əhdi və Həzrət İsmayıl əleyhissalamın adı ilə bağlı bu müqəddəs gün əsrlər boyudur ki, dünyamıza ümumbəşəri birlik və insanpərvərlik mesajını çatdırır. Müsəlman aləmi üçün əziz olan mübarək Eyd-əl-Əzha - Qurban bayramı ərəfəsində Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası ənənəvi olaraq Qurban bayramına dair tövsiyələrini çatdırır. Qurban bayramına dair hökmlərə və şəri qaydalara əsasən, qurban kəsmək Məkkədə Həcc ziyarətini icra edən zəvvarlara vacib buyurulub. Digər yerlərdə isə imkanı olan adamların qurban kəsmələri sünnət əməl, Qurban ətini fəqir və kasıb ailələrə paylamaq böyük savab sayılır: "Unutmaq lazım deyil ki, Uca Allah müqəddəs "Qurani-Kərim"də qurbanlığın dəyərini deyil, xeyirxah və təmiz niyyətin əhəmiyyətini vurğulayır: "Onların (qurbanların) nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Ona çatan yalnız sizin təqvanızdır (Həcc; 37)". Adətən qurbanlıq üçün qoyuna üstünlük verilir. Lakin keçi, inək və dəvəni də qurbanlıq üçün seçmək olar. Həmin ətin bölgüsündə hər kəs azaddır, hərçənd imkansızlara yardım etmək dinimizin ruhuna daha yaxındır, çünki belə davranmağı Əziz Peyğəmbərimiz (s) bizlərə tövsiyə edib. Qurbankəsmə ayini təmizlik və yüksək sanitariya şəraitində, münasib yerlərdə icra edilməlidir. Şəriət qaydalarına görə, qurban kəsilən heyvan sağlam və kəsimə yararlı olmalıdır. Xəstə, arıq və qüsurlu heyvanlar qurbanlığa münasib sayılmır. Adətən müəyyən yaş həddinə çatmış heyvanlar kəsilir. Keçi və qoyunun yaşı bir ilə yaxın, öküz və inək bir və ya iki ildən artıq, dəvənin isə beş ili tamam olmalıdır. Şəriətə görə, heyvanın üzü qibləyə uzadılaraq, Qurban niyyəti ilə Allahın adı çəkilərək kəsilməsi vacibdir. Qurbanlıq əsasən üç hissəyə bölünür: bir hissəni qurban sahibi özünə, digər hissə fəqir və kasıb ailələrə, üçüncü hissəsinin isə hədiyyə kimi qohum-əqrəbaya paylanması tövsiyə olunur.

Məlahət Rzayeva



**İyulun 5-də saat 18 radələrində Xəzər rayonu, Qala qəsəbəsi ərazisində fəhlə bədbəxt hadisə nəticəsində ölüb, hadisə ilə bağlı cinayət işi açılıb.**

Xəzər Rayon Prokurorluğundan bildirilib ki, həmin ərazidə yerləşən Bakı Elektrik Maşınqayırma Zavodunda fəhlə işləyən 1985-ci il təvəllüdlü Elfaq Rəhimovun dəmir parçasının dəyməsi nəticəsində aldığı xəsarətlərdən ölməsi barədə rayon prokurorlug?una məlumat daxil olub.

# İstehsalatda ölüm halı varsa məsuliyyət rəhbərliyindir

## Heç nə düzəlmir, hələ də iş yerlərində təhlükəsizlik qaydalarına biganə yanaşılır

Faktla bağlı Xəzər Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 162.2-ci (əmək mühafizəsi qaydalarını pozma ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Hazırda iş üzrə istintaq davam etdirilir. Müxtəlif tikinti obyektlərində, yaxud da istehsal zavodlarında bu cür qəzalar teztez olur. Vaxtaşırı ölümlə nəticələnən faktlar barədə məlumat alırıq. Əksəriyyətinin isə ehtiyatsızlıqdan baş verdiyi qeyd olunur.

İstehsalat qəzalarından necə sığortalanmaq olar?

Qeyd edək ki, dövlət və qeyri hökumət təşkilatları səviyyəsində istehsalat qəzalarının qarşısını almaq istiqamətində uzun illərdir ki, layihələr, təkliflər hazırlanır, ölüm hallarının ən azı minimuma endirilməsinə çalışırlar.İstehsalatda sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üçün çoxsahəli tədbirlər görülür. Amma bütün bunlara rəğmən nəticə arzuolunan səviyyədə deyil.

**Təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyevin "Şərq"ə açıqlamasına görə, istehsalatda, tikintidə, sənaye müəssisələrində və ümumiyyətlə, iş yerlərində baş verən qəzalar iş yerlərində təhlükəsiz əmək şəraitinin yaradılmaması, texniki təhlükəsizlik, əməyin mühafizəsi kimi təhlükəsizlik qaydalarına riayət edilməməsi səbəbindən baş verir:** "İş yerlərində cavabdeh şəxslər tərəfindən təhlükəsiz əmək şəraiti yaradılmalıdır. Yəni işçilər üçün real həyati təhlükə olmamalıdır. İşçilər bilməlidirlər ki, texniki təhlükəsizlik qaydalarına, əməyin mühafizəsi qaydalarına əməl edilməzsə, həm özləri, həm də digər işçilər üçün təhlükə yaratmış olurlar. Burada əsas məsuliyyət iş yerlərində rəhbər şəxslərin üzərinə düşür. Onlar həm istehsalat prosesində, həm də təmir tikinti və yenidənqurma vaxtı çalışan işçilərin təhlükəsizlik qaydalarına riayət etmələrini təmin etməli, qayda pozuntusu aşkar edərsə işi dərhal dayandırmalı və pozulmuş texniki təhlükəsizlik və əməyin mühafizəsi normaları bərpa olunduqdan sonra işin davam etməsinə icazə verməlidir. Yəni işi çalışdıranın marağında olmalıdır. Ancaq çox təəssüflər olsun ki, bugünkü gündə bir çox iş yerlərində buna biganə yanaşılır, təhlükəsizlik qaydalarına ciddi yanaşılmır, təhlükəsizlik qaydalarının pozulmasına görə heç kim məsuliyyətə cəlb olunmur. Deməli olar ki, işçilərin çoxu bunu bilməyərəkdən edir, yəni xəbəri yoxdur ki, hansı təhlükəsizlik qaydalarına riayət etməlidir, necə etməlidir . Nəticədə isə iş yerlərində ağır qəzalar olur; həm işçilər xəsarət alır, həm də böyük maddi itkilər ilə qarşılaşırlar. Bunun qarşısını almaq üçün istehsalatda, iş yerlərində işçilər üçün sağlam əmək şəraiti yaratmaq lazımdır. Təəssüflər olsun ki, bir çox müəssisələr, iş yerləri buna əməl etmir".

Şəymən



# Psixi xəstələr ortalıqda sərbəst şəkildə gəzirlər

## "Ən azı ildə iki dəfə əhali pulsuz şəkildə fiziki, psixoloji müayinədən keçməlidir"

**Ötən gün 39 yaşlı Roman Məmmədov adlı şəxs "TikTok" sosial şəbəkəsi üzərindən baltaya oxşar vasitəni nümayiş etdirərək cinsi azlıqları hədələyib. O qeyd edib ki, əgər qarşısına belə bir şəxs çıxsa, baltalayacaq.**

Daxili İşlər Nazirliyinin keçirdiyi əməliyyat nəticəsində R.Məmmədov müəyyənləşib və saxlanılıb. Xuliqanlıq əməli törədən şəxsin metrodakı yoxlama aparatına rəğmən şübhə doğurmaması sosial şəbəkə istifadəçilərinin diqqətindən qaçmayıb. "Baltalı adam"ın bu addımına haqq qazandırıb, ona dəstək verənlər də var: "halal olsun", "kişi adamsan" şərhləri yazılıb.

**Hadisəyə münasibət bildirən "Sağlam Cəmiyyət" Hərəkatının rəhbəri, sosioloq Elçin Bayramlı "Şərq"ə açıqlamasında son vaxtlar belə halların sayının artdığını söyləyib:** "Olay cəmiyyətdə psixi problemlər, stress, sosial aqressiyanın artması ilə əlaqəlidir. Sovet dövründə psixi xəstələr dispanserdə müalicəyə cəlb olunurdu. İndi isə sərbəst şəkildə ortalıqda gəzirlər, heç bir müayinəyə getmirlər. Psixi problemlər şiddətlənəndə belə hadisə ilə nəticələnir.

Bu zaman əhalinin icbari tibbi müayinədən keçməsi məsələsi aktuallaşır. Ən azı ildə iki dəfə əhali pulsuz şəkildə fiziki, psixoloji müayinədən keçməlidir. İş yerlərində, təhsil müəssisələrində və s. müayinə tələbi qoyulmalıdır. Psixi xəstənin törətdiyi faciəyə görə cəzalandırılması məntiqə uyğun gəlmir. Özündən asılı olmayaraq addım atır. Cəmiyyət və dövlət onları müalicə etməlidir. Əks təqdirdə daha betər hadisələr görəcəyik.

Cinsi azlıqlar bəzən saygısız davranırlar. Cəmiyyətin milli, mənəvi dəyərlərini gözdən salırlar. Onlar özlərini yığışdırsınlar. Belə məsələləri təbliğ edib, qıcıq yaratmasınlar. Fiziki və ya psixi xəstəlikləri var. Adilləşdirmək doğru deyil. Cəmiyyətdə cinsi azlıqlar normal qarşılanmır. Xoşagəlməz hallar yaşananda, müəyyən prinsipləri pozanda təbii ki, ictimai qınağın hədəfinə çevriləcəklər".

*Sabiq polis rəisi, hüquqşünas Mahmud Hacıyevin fikrincə, hadisənin səhlənkarlıqdan baş verməsi mümkündür:*

"Diqqətli yanaşmaq lazımdır. Bu cür durumlar hüquq-mühafizə orqanlarının Xidməti Təhqiqatlar İdarəsi tərəfindən araşdırılır. Yəqin hüquqi qiymət veriləcək".

Aygün Tahir

# Metrodakı baltalı adam polis nəzarətində olacaq

## Xuliqanlıq edən şəxs inzibati məsuliyyətə cəlb edilə bilər, yaxud da cərimə olunacaq

**Metroda balta ilə sərnişinləri hədələyən şəxs həbs edilib. DİN Mətbuat Xidmətinin məlumatında bildirilir ki, "Tik-Tok" sosial şəbəkəsində videonu paylaşan şəxsin 39 yaşlı Roman Məmmədov olması müəyyən edilib və o, saxlanılıb.**



İlkin dindirilmə zamanı R.Məmmədov törətdiyi xuliqanlıq əməlini etiraf edərək bu tip videoları sosial şəbəkələrdə məşhurlaşmaq məqsədilə çəkdiyini, fərdi qaydada təmir-tikinti işləri ilə məşğul olduğunu və uzun müddətdir ki, o da digər ustalar kimi təmir alətləri ilə metrodan istifadə etdiyini bildirib. "Bu gün insanlar ictimai nəqliyyatdan - avtobuslardan, eləcə də metrodan istifadə edərkən üzərində olan belə təsərrüfat alətləri ilə işə gedib-gəlirlər. Metrodakı müşahidə kameralarına da baxdıqda həmin şəxsin gündəlik olaraq əşyalarının polis əməkdaşları tərəfindən yoxlanıldıqdan sonra metroya daxil olması görünür. Odur ki, belə əşyaların metroya keçirilməsi orada xidmətdə olan polis əməkdaşlarının nəzarətinin zəif olması anlamına gəlməməlidir", - açıqlamada deyilir. Hazırda faktla bağlı cinayət işi başlanılıb, istintaq tədbirləri həyata keçirilir.

**Hüquqşünas Adəm Məmmədov "Şərq"ə açıqlamasında bildirib ki, konkret bu əməldə cinayət tərkibi olmadığı üçün şəxs cinayət məsuliyyətinə cəlb edilə bilməz:**

- Balta soyuq silahdır. Soyuq silahla konkret cinayət əməli törədildikdə AR CM-nin uyğun maddələriylə cinayət işi açılır. Bu şəxsin hərəkətində isə cinayət əməli yoxdur. Burada təhdid var. Amma təhdidin də konkret ünvanı yoxdur. Təhdid də real olmalıdır, kiməsə qarşı yönəlmiş olmalıdır ki, şəxs barəsində cinayət işi açılsın. Kiminsə əlində silah tutub "öldürəcəyəm, kəsəcəyəm" deməsi, kimisə öldürməsi anlamına gəlmir. Bu, sadəcə, xırda xuliqanlıq əməlidir. Buna görə həmin şəxs inzibati məsuliyyətə cəlb edilə bilər, yaxud da cərimə olunacaq. Polis tərəfindən ona xəbərdarlıq ediləcək, polisin diqqətində, nəzarəti altında olacaq. A.Məmmədov sosial şəbəkələrin yersiz, mənasız, bəzən təhlükəli əyləncə mühitinə çevrilməsindən təəssüfləndiyini də bildirdi.

Məlahət

# Narkomanların 70 faizi kasıb təbəqədir



## Göstərilən xidmət pulsuz olduğuna görə psixoloqlar da onlarla işləmək istəmir

**Azərbaycanda narkotik maddə asılılığından yardım sahəsində mütəxəssis qıtlığı var.**

Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinin psixoloqu Ramin Allahverdiyevin sözlərinə görə, bəzi məktəblərdə blogerlər və keçmiş maddə istifadəçiləri narkotik maddələrlə bağlı maarifləndirici tədbirlər keçirirlər: "Bu çox həssas məsələdir. Fikrimcə, heç bir şagirdə şpris, maddə adı, deformasiyaya uğramış sümük, bədən göstərməyin faydası yoxdur. Biz şəxsin daxili-xarici resurslarını aktivləşdirməliyik. İdmana, kitaba meyillilik yaradılmalıdır".

Ekspertlərin fikrincə, narkomaniyanın yayılması millətin sağlam həyat tərzi üçün təhlükəlidir. Narkomaniya ilə əvvəlcə psixoloji, sonra sosial və tibbi mübarizə aparmaq lazımdır. Doğrudur, bəzən dərmanlar qəbul etməyi, yaxud qanda narkotiklərin yuyulması prosesini həyata keçirməyi müalicə hesab edirlər, lakin bu, müalicə deyil. Bu, narkotiklə zəhərlənmədən xilasdır, xəstə zəhərlənmədən xilas olur, amma narkotikdən asılılıq qalır. Həmin asılılıqdan xilas olmaq üçün çoxşaxəli müalicə alqoritmi qurulmalıdır, çünki bu zaman mütləq depressiya əleyhinə müalicə aparılmalıdır.

**Narkomaniya üzrə ekspert Emil Maqalov "Şərq" qəzetinə açıqlamasında deyib ki, narkotik maddə asılılığı olan insanlarla işləmək çətin proses olduğundan mütəxəssislər bu sahədə ixtisaslaşmaq istəmir:** "Psixoloqlarımızın da əksəriyyəti qadındır və onlar da narkotik maddə asılılığı olan insanlarla işləmək istəmir. Mütəxəssislərin bu insanlarla işləmək istəməməsinin digər bir səbəbi də göstərilən xidmətin pulsuz və perspektivsiz olması ilə bağlıdır. Narkomanların 70 faizi kasıb təbəqədir. Hətta əvvəl varlı olan insanlar belə aludəçi olduğundan sonra ciblərində bir qəpikləri də qalmır.

Düşünürəm ki, bu sahədəki qıtlığı aradan qaldırmaq, Azərbaycanda narkotik maddə asılılığından yardım sahəsində mütəxəssis sayını artırmaq üçün onlar üçün əməkhaqqı ayrılsa və digər əlavə imtiyazlar verilsə, maraq artar. Onsuz da narkomanların pulu yoxdur, ən azından hökumət bu sahədə ixtisaslaşmaq istəyən mütəxəssislərə maddi təminat verməlidir ki, maraq artsın".

Şəymən

# "Mən etsəydim, verilişimi bağlayardılar"

## Tarix Əliyev Zaur Kamalın müğənni Afşin Azərini proqramdan qovmasından danışıb



**"Mən etsəydim, verilişimi şura bağlayardı. Amma başqa adamları etmədilər, dedilər, haqqındadır. Deyir, Afşin Azəri bayağı mahnı ifaçısıdır. Vaxtında onlar hesabına reytinq qazanırlar, onu efirdən qovur".**

Axşam.az xəbər verir ki, bu sözləri aparıcı-prodüser Tarix Əliyev deyib. O, proqramında aparıcı Zaur Kamalın cənubi azərbaycanlı müğənni Afşin Azərini proqramdan qovmasından danışıb.

Tolik Zaurun Azərbaycan Respublikası Audiovizual Şurası tərəfindən cəzası qalmasından söz açıb:

"Zaurun verilişinə bax, ildə 1 dəfə sənətkar və ya muğam ifaçısı olar. Bayağı mahnıları Zaurun verilişi təbliğ edir. Azərbaycan Mədəniyyətində bu tip ifaların birnömrəli təbliğatçısıdır. Bayağı mahnılar oradan çıxıb. Niyə şişirtmisiniz? Nədən qorxursunuz? Biri ilə pis danışan kimi mənə zəng edirlər. Yaltaq müğənnilər çıxıb onu tərifləyir".

*Qeyd edək ki, Zaur Kamal "Şəhərdə müsahibə götürdük, adını bilmirlər, amma mahnılarınızı eşidiblər. Efirdən əvvəl mənimlə başqa tonda danışdınız, xoşuma gəlmədi. Dediniz ki, Ali Porme və ya digər iranlı müğənnilər kimdir ki, mənim yanımda? İranda səhnələri doldururam. Mən səni efirdən çıxaracağam, sən bir də mənim proqramımda olmayacaqsan" deyərək, Aqşin Azərini proqramdan qovub.*

**Elan**

Bağırova Şərqiyyə Əhəd qızına məxsus Bakı şəhəri, Səlyan şossesi, Qaradağ rayonu, Lökbatan yolu, Cənub qapısı yaşayış kompleksi, bina 24, mərtəbə 5, 102 saylı mənzilin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1993

## “Bir il ömrün qalıb" söyləmişdilər

### Xərçəngdən tamamilə xilas oldu



**Xərçəng diaqnozu qoyulan və uzaqbaşı 1 il yaşaya biləcəyi ehtimal edilən qadın həkimləri heyrətə salıb.**

Bu barədə ”Milliyet.com.tr” ”İndependent”ə (Türkcə) istinadən xəbər verir. 51 yaşlı Jasmin David 2017-ci ildə səhhətində yaranmış problemlə əlaqədar həkimə müraciət edib. Müayinələr zamanı qadında döş xərçəngi aşkarlanıb. Hətta xərçəngin ağ ciyərlərə, köks sümüyünə və limfalara yayıldığı müəyyən edilib. Qadına ”belə ağır mərhələli xərçənglə ancaq 1 il yaşaya bilərsiniz”, deyilib. Jasmin müalicəyə başlayıb. 6 ay kimya terapiya kursu keçib, 2018-ci ildə cərrahi əməliyyatla döşü amputasiya edilib. Bundan sonra da müalicə kursu davam edib və Jasmin 15 kurs radioterapiya müalicəsi alıb. Bununla da qadının xərçəngdən xilas olduğu bildirilib. Lakin 2019-cu ildə Jasminin vəziyyəti yenidən ağırlaşıb. Müayinə zamanı toxumalarda dəyişiklik görülüb, yəni xərçəngin geri döndüyü müəyyənləşib. Bunu öyrənən Jasmin cəsarətli addım ataraq qalan ömrünü tibb elminin inkişafına - xərçənglə mübarizəyə həsr etmək qərarına gəlib. Qadın üzərində kliniki təcrübə keçirilməsinə razılıq verib. Təcrübə müddətində Jasminə hər 2 həftədən bir ”Atezolizumab” adlı immuno-terapiya iynəsi vurulub. Təcrübə 2 il davam edib, sonunda Jasminin bu dəfə də xərçəngə qalib gəldiyi məlum olub. Yasmin başına gələnlər barədə ”Manchester Evening News”a danışıb: ”Bu təcrübənin işə yarayıb-yaramayacağından əmin deyildim. Amma başqalarına bəlkə köməyim dəyər və gələcək nəslin xərçənglə mübarizəsinə yardım etmiş oldum” düşüncəsiylə buna razılaşdım. Onsuz da öləcəyəm, heç olmasa insanlara köməyim dəyər”. Jasmin aprel ayında Hindistana, ailəsiylə görüşməyə gedib. Ailəsinə ”bundan sonra erkən təqaüdə çıxacağam, həyatımı Allaha və tibb elminə şükr etməklə keçirəcəyəm”, deyib, ailəsi də qərarına hörmətlə yanaşıb. Jasminin müalicəsi hələ tam başa çatmayıb. Onun müalicəsi 2023-cü ilədək davam edəcək. Kliniki təcrübənin rəhbəri, B.Britaniya, Mançesterdəki ”Christie” xəstəxanasının professoru, onkoloq Fiona Thistlethwaite Yasminin bu qədər uğurlu nəticə əldə etdiyindən məmnun olduqlarını söyləyib: ”Xərçənglə mübarizədə yeni üsullar və dərman preparatlarını davamlı təcrübədən keçiririk. Məqsədimiz daha çox insanın xərçənglə mübarizədə qalib olmasıdır”.

**Məlahət Rzayeva**

## Qarpız, sarımsaq əvəzinə ev satılır

### Çində tikinti şirkətləri ağlasığmaz addım atıb



**Çində daşınmaz əmlak böhranı yaşanır, ev satışları ardıcıl 11 aydır ki, azalır.**

”Şərq” NTV-yə istinadən xəbər verir ki, 2021-ci ilin eyni ayı ilə müqayisədə ev satışları keçən may ayında 31,5 faizə qədər azalıb. Çindəki mənzil bazarına podratçıların layihə üzrə tikintiyə başlamazdan əvvəl əmanət götürməsini qadağan edən son qərar da təsir edib. Bu, podratçıları borc böhranına uğradıb. Dövlət xəbər saytı ”China News Weekly” açıqlayıb ki, şərqdəki Nankin şəhərində bir tikinti şirkəti dəyəri 100.000 yuanı keçməmək şərti ilə fermerlərdən bir yük maşını dolusu qarpızı ilkin ödəniş olaraq qəbul edəcək. ”Homebuilder Central China Management” adlı tikinti şirkəti tərəfindən sosial mediada yayılan açıqlamada, ”Yeni sarımsaq mövsümü münasibəti ilə şirkətimiz Qi mahalındakı sarımsaq fermerlərinə fayda gətirmək üçün yeni bir qərar verib. Fermerlərin ev almasını asanlaşdıracağıq”, yazılıb. Digər tərəfdən, Henan əyalətinin mühüm sarımsaq istehsalçısı olan Qi mahalında ev almaq istəyənlərin ilkin ödənişin bir hissəsini ödəmək üçün məhsullarını bazar qiymətinin üç qatına dəyişdirə biləcəkləri açıqlanıb. Vuxi şəhərindəki başqa bir podratçı isə şaftalıları ödəniş kimi aldığını bildirib.

**Çimnaz Şahlar**

## Yaponiyada anomal istilər

### İnsanlar küçəyə çıxa bilmir




**Son həftə ərzində Yaponiyada ən azı 14 300 nəfər gün vurması diaqnozu ilə xəstəxanaya yerləşdirilib.**

**Medicina.az xəbər verir ki, ölkənin Fövqəladə Hallar Nazirliyinin funksiyalarını yerinə yetirən yanğından mühafizə baş idarəsi məlumat yayıb.**

**Məlumata görə, cəmi bir həftə ərzində gün vurmaya görə xəstəxanaya yerləşdirilənlərin sayı 3,2 dəfə artıb ki, bu da müvafiq statistikanın aparıldığı bütün zamanlar üçün mütləq rekorddur.**

**Qeyd edək ki, Yaponiyada ötən həftə son 150 ilin rekord istiləri müşahidə olunub. Tokioda orta sutkalıq temperatur 32 dərəcəni keçib. Ölkənin bəzi bölgələrində termometrlər 40 dərəcədən yuxarı qalxıb.**

**Ölkədə ən isti hava adətən iyul və avqust aylarına təsadüf edir. Yerli hakimiyyət orqanları ictimaiyyəti papaq taxmağa, daha çox maye içməyə və günəş şüalarından qorunmağa çağırır.**

## “Yaxşı ki, Şeymadan qurtuldum"

### Mohammed Alsaloussi israilli modellə eşq yaşamağa başlayıb



**Sosial media fenomeni Şeyma Subaşının keçmiş misirli nişanlısı Mohammed Alsaloussi israilli model Eden Polaniylə eşq yaşamağa başlayıb.**

**Axsam.az əbər verir ki, ötən həftə Parisdə istirahət edən cütlük restoranların birində türk turistlə söhbət edib.**

**Alsaloussi ”Yaxşı ki, Şeymadan qurtuldum. Edenlə çox xoşbəxtəm, yaxın zamanda evlənməyi düşünürəm” sözlərini deyib.**

***Qeyd edək ki, Şeyma Subaşı ”T8”in rəhbəri Acun Ilıcalının keçmiş həyat yoldaşıdır.***









# Bura "yer üzünün cənnəti" deyirlər

## Alaçatı və onun təbii gözəllikləri heyran edir

**İzmirin təbii gözəllikləri ilə seçilən qəsəbəsi Alaçatı CNN tərəfindən ”Yer üzünün cənnəti” olaraq xarakterizə edilib. Çimərlikləri, rəngarəng küçələri, dəbdəbəli restoranları və butik məkanları ilə seçilən Alaçatı sanki Egeyin bütün gözəlliklərini bir yerə toplayıb.**

Kərpic daşlı küçələri və çiçəklərlə bəzədilmiş ev divarları ilə Türkiyənin ən məşhur istirahət məkanlarından biri olan Alaçatı hamını heyran edir.

Çeşmə yarımadasında yerləşən Alaçatının təbii gözəllikləri və turistlərə təqdim etdiyi imtiyazlarla cənnət olduğunu bildirən xəbər saytı qəsəbə haqqında ətraflı məlumat hazırlayıb.

Canlı rənglərə boyanmış taxta qapıları, köntöy daş evləri, dəbdəbəli restoranlarla dolu dolama küçələri, müasir incəsənət qalereyaları və butik mağazaları ilə Alaçatı tipik bir Aralıq dənizi şəhərciyinin bütün xüsusiyyətlərinə malikdir.

2000-ci illərin əvvəllərində populyar olmağa başlayan Alaçatı, İzmirdən avtomobillə təxminən bir saatlıq məsafədədir. Xoş mənzərələri ilə həm yerli turistlərin, həm də beynəlxalq ziyarətçilərin diqqətini cəlb edir.

Alaçatıya təkcə istirahət edənlər deyil, külək sörfçüləri də axışır. Güclü küləkləri ilə dəbdəbəyə çevrilən qəsəbənin özünü Türkiyənin külək sörfünün paytaxtı elan etdiyini söyləmək olar.



19-cu əsrin ortalarına qədər daha çox bataqlıq olan Alaçatı bir çox abadlıq işləri görüb. Yaxınlıqdakı adalardan gələn yunan işçilər üzüm və zeytun bağları yetişdirmək üçün burada məskunlaşaraq, bölgənin Türkiyənin qabaqcıl şərab və zeytun yağı istehsalı bölgəsinə çevrilməsinə töhfə veriblər.

1920-ci illərdə Türkiyə ilə Yunanıstan arasında əhali mübadiləsindən sonra Alaçatı böyük ölçüdə tərk edilib. Onların daş evlərinin çoxu onilliklər ərzində tərk edilmiş vəziyyətdə qalıb.

Lakin son 20 ildə xüsusilə sahilyanı hissədə dəyişiklik olub. Başqa bölgələrdən gələn istirahətçilər burada məskunlaşmağa başlayıblar və Alaçatı indiki formasını alıb. Alaçatı tarixi faktuları ilə də diqqət çəkir. YUNESKO-nun Dünya İrs Siyahısına daxil olan Efes qədim xarabalıqları Alaçatıdan cənuba bir saatlıq məsafədədir. Qədim şəhər xristianlığın ən hörmətli yerlərindən biri olaraq qalır və Türkiyənin ən yaxşı arxeoloji möcüzələrinə, o cümlədən Roma İmperatoru Hadrianın şərəfinə tikilmiş Hadrian məbədinə ev sahibliyi edir.

**Turan**




# "Ana" demək yasaqdır

## İlon Mask uşaqlarına əməl etməli olduğu 9 qayda aşılayıb

**Elektrikli avtomobil markası ”Tesla” və ”SpaceX”-in qurucusu İlon Mask 224 milyard dollarla dünyanın ən zəngin adamı olsa da, tez-tez ata kimi xatırlanır. 7 övladı olan milyarderin tutduğu vəzifəyə görə övladlarından müəyyən gözləntiləri var. İlon Maskın uşaqlarının əməl etməli olduğu 9 qayda çox maraqlıdır.**

İlon Mask texnologiya dünyasındakı təşəbbüsləri ilə tanınsa da, şəxsi həyatı ilə tez-tez gündəmdədir.

Uşaqlarına verdiyi maraqlı adlarla tanınan Maskın Griffin (18), Xavier (18), Kai, (16) Saxon (16), Damian (16), X AE A-XII (2) və Exa Dark Sidereal (7 aylıq) ) adlarında 7 övladı var.

Dünyanın ən zəngin adamının övladı olmaq təbii ki, böyük məsuliyyətlər və qaydalar gətirir. ”Young Tango” saytının hazırladığı xəbərə görə, Maskın uşaqlarının əməl etməli olduğu qaydalar belədir...

Mask övladları böyüyəndə arxa planda qalmaq istədiyini bildirsə də, keçmiş sevgilisi müğənni Grimes Maskın oğulları X üçün böyük gözləntiləri olduğunu iddia edib. ”Elon onu varisi olaraq görür və ona hər şeyi təklif edir” deyir Grimes. Övladları ilə mediada çox görünməyən Mask artıq X oğlunu da bir neçə tədbirə aparıb.

Milyarderin təhsil anlayışı olduqca qeyri-ənənəvidir. Müsahibəsində Mask, uşaqlarının ən çox internetdə bir şey öyrənə biləcəyini iddia edir. O, ”Məncə, uşaqlarım daha çox YouTube və ”Reddit”dən öyrənirlər” ifadəsini işlədib.

İş adamı qatıldığı Peyk Konfransında də Mask deyib ki, uşaqlarının video oyunları oynamaq əvəzinə kitab oxumasını istəyir. Övladlarının ekrana aludə olmasının qarşısını almaq istəyən Mask tez-tez kitab oxuma vərdişlərinin vacibliyini vurğulayır.

Bugünkü mövqeyə gəlmək üçün çox çalışdığını və bir çox çətinliklərin öhdəsindən gəldiyini bildirən Mask, övladlarının həyat mübarizəsini dadmasını istəyir. 17 yaşında ailəsinin dəstəyi olmadan Kanadada məskunlaşan iş adamı məktəbdə zorakılığa məruz qaldığını və uğur qazanmaq üçün çox çalışdığını bildirib.

Ənənəvi təhsillə bağlı müsahibə verən Mask övladlarının istədiyi məktəbdə təhsil almasına diqqət yetirir. Kaliforniyada Ad Astra adlı məktəbi seçən Mask bildirir ki, bu məktəb ənənəvi qiymətləndirmə üsullarından istifadə etmir və daha tənqidi düşünməyə təşviq edir.

Milyarder 2020-ci ildə verdiyi müsahibədə övladları üçün ilk yaşlarında aktiv rol oynamadığını bildirir. ”Hazırda edə biləcəyim çox şey yoxdur” deyir Mask. Grimesin məndən daha böyük rolu var. Uşaqlar böyüyəndə mənim də rolum artacaq”.

Milyarderin həyat tərzinə görə İlon Maskın uşaqları səyahətə öyrəşməlidir. ”Tesla” ilə bağlı bir iş üçün Çinə getməli olsam, uşaqlarımı da özümlə aparacam” deyən Mask, tez-tez müxtəlif ölkələrə səyahət etdiyini və ailəsini də özü ilə aparmaq istədiyini bildirib.

”Məncə, universitetlər əylənmək və nəyisə öyrənmək üçün deyil, bəzi işlərlə məşğul ola biləcəyinizi göstərmək üçün kifayətdir” deyib.

Mask müğənni Grimesin oğlu X-ə ”ana” sözünü işlətmək qadağan edilib. X müğənniyə əsl adı ilə müraciət edir. Grimesin fikrincə, X onun xoşuna gəlməyən ana sözünü hiss edir və buna görə də ona ”ana” demək istəmir.

Müsahibələrinin birin-

**Turan**

## Mütəxəssislər də təəccübləndi

### Meymunçiçəyinin yoluxma əlamətləri dəyişib




**Meymunçiçəyi virusuna yoluxma əlamətlərində dəyişiklik qeydə alınıb.**

”Şərq” ”NTV.com.tr”yə istinadən bildirir ki, ”The Lancet” dərgisində yayımlanan məlumatda aparılan tədqiqat zamanı meymunçiçəyi virusuna yoluxma hallarının araşdırıldığı və mütəxəssislərin təəccübünə səbəb olan fərqliliklər müəyyənləşdiyi qeyd edilir. Yoluxmadakı əlamətlər daha öncəki yoluxma faktlarından fərqlənir. Tədqiqat İngiltərənin Chelsea və Westminster xəstəxanaları tərəfindən aparılıb. Məlum olub ki, hazırda meymunçiçəyinə yoluxma hallarında yorğunluq və hərarət daha az müşahidə edilir. Amma cinsi orqanlarda yaralara daha tez-tez rast gəlinir. Mütəxəssislər bu fikirdədir ki, meymunçiçəyi virusunun yayğın olmadığı ölkələrdə yoluxma sayının artmasında cinsi münasibətlər əsas rol oynayır. İngiltərədə 2 həftə ərzində 40-41 yaş aralığında olan kişilər cinsi orqanlardakı səpkilər səbəbiylə klinikalara müraciət edib. Bu insanların Afrikaya səyahət etmədiyi də müəyyənləşib. Müraciət edənlər meymunçiçəyinə yoluxmuş insanlarla yaxın təmasda olduqlarını fərq etməyiblər. Bu da müəyyənləşib ki, müraciət edənlər arasında 1 və daha artıq qadınla cinsi münasibətdə olanlar da az deyil. Bu da meymunçiçəyinin cinsi yolla yoluxması, partnyorların tez-tez dəyişdirilməsinin yoluxma sayını artırdığını göstərir. Yoluxmuş şəxslərin cinsi orqanlarında səpkilər, suluqlar əmələ gəlib. 5 nəfər xəstəxanaya yatızdırılıb, ölüm halı isə olmayıb. Bu xəstələrə cinsi yolla keçən başqa yoluxucu xəstəlik diaqnozu da qoyulub. Hazırda Avropa və Şimali Ameriakada meymunçiçəyi virusuna 5 min 700-dən çox yoluxma faktı qeydə alınıb. Mütəxəssislər həssas dönəmdə insanları sanitar-gigiyenik qaydalara ciddi riayət etməyə çağırır.

**Məlahət**

## Dünyanın ən yaxşı yataqxanası

### Bina 360 nəfərlik çox rahat yaşayış üçün nəzərdə tutulub



**Danimarkanın Orestad şəhərində, Kopenhagen ətrafında yerləşən Tietgen dünyanın ən yaxşı yataqxanası hesab edilir.**

Azərtac bildirir ki, yataqxananın dairəvi, yeddimərtəbəli əsas binasının forması içəridə yaşayan insanların birliyini simvolizə edir.

Bina 360 nəfərlik çox rahat yaşayış üçün nəzərdə tutulub ki, onlar təkcə terraslı rahat və geniş otaqlar deyil, həm də ictimai yerlər - ümumi otaqlar, mətbəxlər, kitabxanalar, idman kompleksi və oyun otaqlarından ibarətdir.

Bu dəbdəbəli binada yaşayış sahəsi bir nəfərlik otaq üçün 26-33 kvadratmetr, birlikdə yaşamağa qərar verən cütlük üçün isə 45 kvadratmetrdir.